Rəsmi dövlət qəzeti

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 188 (8211) CÜMƏ AXŞAMI, 29 avqust 2019-cu il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az





# Texnoparklar qeyri-neft sektorunun inkişafını sürətləndirir

## İlin birinci yarısında qeyri-neft sənayesində 15,7 faiz artımın qeydə alınması bunu bir daha təsdiqləyir

**Dayanıqlı inkişaf istehsalyönümlü sənayenin miqyasından asılıdır. Bunun üçün də hər bir ölkədə sənaye istehsalı ümumi istehsalda yüksək çəkiyə malik olmalıdır. Bizdə bu sahədə üstün mövqe neft sənayesinə məxsusdur. Lakin enerji daşıyıcılarının qiyməti dünya üzrə sabit olmadığı üçün bu dəyişkənlik ölkənin maliyyə bazarına bəzən müsbət, bəzən də mənfi təsir göstərir.**

Bu məqsədlə ölkəmizdə də iqtisadiyyatın şaxələndirilməsi, xüsusilə qeyri-neft sektorunun inkişafı ön plana çıxarıldı. Beləliklə, qeyri-neft sektorunun inkişafı üçün iqtisadi islahatların aparılmasına start verildi. Ötən 15 ildə bu istiqamətdə görülən işlər nəticəsində ümumi istehsalda qeyri-neft sektorunun payı ildən-ilə artmaqda davam edir.

Azərbaycanda sənayeləşmə prosesini sürətləndirmək məqsədilə 2015-2020-ci illəri əhatə edən "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası qəbul olunmuşdur. Bu sənədlə sənayenin inkişaf perspektivləri müəyyən edilmiş, hazırlanan tədbirlər planına əsasən sənaye potensialının gücləndirilməsi, bu sahədə rəqabətqabiliyyətliliyin artırılması, kadr potensialının, elmi təminatın yaxşılaşdırılması, normativ-hüquqi bazanın təkmilləşdirilməsi müəyyənləşdirilmişdir.

Sənayeləşmədə ölkədə yaradılan texnoparkların da əhəmiyyəti böyükdür. Texnoparklar yüksək keyfiyyətli məhsul hazırlamaq qabiliyyətinə malikdir. Buna elmin son nailiyyətlərindən və müasir texnologiyalardan istifadə etməklə nail olunur. Son dövrlər Bakıda, eləcə də bölgələrdə texnoparkların və sənaye məhəllələrinin yaradılması istiqamətində böyük işlər görülür. Məqsəd yerli və xarici sahibkarlar üçün müxtəlif istiqamətlər üzrə yeni sənaye müəssisələrinin yaradılmasına kömək göstərməkdir. Atılan bu müsbət addım öz bəhrəsini verir. Belə ki, yeni yaradılan texnoparklarda xarici və yerli sahibkarların fəaliyyəti getdikcə genişlənir.

Ölkədə texnoparklar yaradılarkən sahibkarlığın yeni istiqamətlər üzrə inkişafı da nəzərə alınıb. Bunun nəticəsidir ki, texnoparklarda xarici və yerli sahibkarlar birgə çalışırlar. Texnoparklara investisiya cəlb edilməsi üçün onlara müəyyən güzəştlər də edilir. Bu da istər yerli, istərsə də xarici sahibkarlardan ötrü əlverişlidir. Xüsusilə birbaşa xarici investisiyaların cəlb edilməsi üçün əlverişli infrastrukturun yaradılması, cəlbedici güzəştlər mexanizmi, müvafiq prosedurların sadələşdirilməsi, həmçinin elektron xidmətlərin təqdim edilməsi, idarəedici təşkilat tərəfindən təqdim olunan xidmətlər sahibkarları daha çox cəlb edir. Sözsüz ki, bütün bunlar dövlət dəstəyi sayəsində mümkün olur. İnvestorlar üçün yaradılan geniş imkanlar da bu sahəyə dövlət dəstəyinin olduğunu təsdiq edir.

Beləliklə, ölkəmizdə qeyri-neft sənayesini inkişaf etdirmək üçün sənaye parklarının yaradılmasına qərar verildi. Prezident İlham Əliyevin 21 dekabr 2011-ci il tarixli fərmanı ilə ilk dəfə Sumqayıt Kimya Sənaye Parkı yaradıldı. Məqsəd ölkədə innovativ və yüksək texnologiyalar əsasında rəqabətqabiliyyətli məhsul istehsal etmək, həmçinin qeyri-neft sektorunun davamlı inkişafına nail olmaqdır. Bununla yanaşı, dünya bazarına keyfiyyətli məhsul çıxarmaqla əhalinin məşğulluğunu təmin etməkdir.

Sumqayıt Kimya Sənaye Parkında artıq 18 rezident var və bu rezidentlər mövcud layihələri üzrə sənaye parkına 2,9 milyard dollar investisiya qoymuş, 5 mindən çox daimi iş yeri açmışdır. Bunlar "Azertexnolayn" MMC, "SOCAR Polymer" MMC, "AzerFloat" QSC, "Azerbaijan Fibro Cement" MMC, "Baku Non Ferrous and Foundry Company" MMC, İnşaat Kimyəviləri Zavodu, "MST Engineering Services" MMC, "Aqrokimya Azərbaycan" MMC, "Alco" MMC, "STDC" MMC, "Azərxalça" ASC, "STP" MMC, "Tabaterra" QSC, SOCAR-ın Karbamid Zavodu, "Sumplast" MMC, "Labdisc Azərbaycan" QSC, "Nexus Labs" MMC, "Archi Glass" MMC-dir. Parkın sənaye zonasında kimya sənayesi, tikinti sənayesi və digər sənaye sahələri üzrə müəssisələrin - parkın rezidentlərinin fəaliyyət göstərməsi üçün böyük imkanlar yaradılır. Hazırda bu müəssisələrdə istehsal olunan məhsullar ölkənin daxili tələbatını ödəməklə yanaşı, dünya bazarına da ixrac edilir. Çünki texnoparkda yüksək texnika və texnologiyalardan istifadə edildiyi üçün rəqabətqabiliyyətli məhsul istehsalına geniş imkan yaranıb.

İkinci böyük sənaye nəhəngi olan Balaxanı Sənaye Parkı Prezident İlham Əliyevin 28 dekabr 2011-ci il tarixli sərəncamı ilə yaradılıb. Qeyd edək ki, həmin parkda fəaliyyət göstərən sahibkarların marağı nəzərə alınaraq dövlət başçısının 1 mart 2018-ci il tarixli sərəncamına əsasən onun ərazisi 1,3 hektar artırılaraq 8,3 hektara çatdırılıb. Balaxanı Sənaye Parkının ərazisində məişət tullantılarının emalı (təkrar emalı) və xidmət müəssisələrinin yaradılması nəzərdə tutulmuşdur. Parkın idarəedici təşkilatı "Təmiz Şəhər" ASC-dir. "Yaşıl iqtisadiyyat"ın inkişafında xüsusi əhəmiyyətə malik olan bu parkın təşkilində başlıca hədəf təkrar istehsal sahəsində maraqlı olan potensial sahibkarlar və investorlar üçün əlverişli şəraitin yaradılmasıdır. Ümumilikdə parkda 41,3 milyon manat investisiya ilə 16 rezident qeydiyyata alınmışdır.

*Ardı 4-cü səh.*

## Azərbaycan Respublikası vətəndaşlarının 2019-cu il oktyabrın 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılması və müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının ehtiyata buraxılması haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 26-cı bəndini rəhbər tutaraq "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 12.3-cü və 40.1-ci maddələrinə əsasən və Azərbaycan Respublikasının Silahlı Qüvvələrini şəxsi heyətlə komplektləşdirmək məqsədi ilə **qərara alıram:**

1. 2001-ci ildə doğulmuş və çağırış gününədək (həmin gün də daxil olmaqla) 18 yaşı tamam olmuş, habelə 1984-2000-ci illərdə doğulmuş, yaşı 35-dək olan, Azərbaycan Respublikasının Silahlı Qüvvələrində müddətli həqiqi hərbi xidmət keçməmiş, müddətli həqiqi hərbi xidmətə çağırışdan möhlət hüququ olmayan və ya müddətli həqiqi hərbi xidmətə çağırışdan azad edilməmiş Azərbaycan Respublikası vətəndaşları 2019-cu il oktyabrın 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılsınlar.

2. "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 38.1.1-ci maddəsində nəzərdə tutulmuş xidmət müddətini keçmiş müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları 2019-cu il oktyabrın 1-dən 30-dək ehtiyata buraxılsınlar.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamın icrası üçün qanunvericilikdə nəzərdə tutulmuş tədbirləri görsün.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 28 avqust 2019-cu il*

## Mark ŞNAYER: "Birinci xanım Mehriban Əliyeva Azərbaycanda qadın hüquqlarının və imkanlarının genişləndirilməsi istiqamətində çox iş görüb"



**ABŞ Etnik Anlaşma Fondunun prezidenti, ravvin Mark Şnayer AZƏRTAC-a müsahibəsində Azərbaycanda tolerantlıq və qarşılıqlı anlaşma ənənələrindən, həmçinin bu dəyərlərin bütün dünyada təbliği istiqamətində Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın səylərindən bəhs edib.**

Ravvin Şnayer deyib: "Mən Azərbaycanı digər 57 müsəlman ölkəsi ilə müqayisə etməyi xoşlayıram. Açıq-aşkardır ki, sizin ölkəniz multikulturalizm ənənələri sahəsində mütləq liderdir. Söhbət təkcə Prezident İlham Əliyevin bütün beynəlxalq konfranslarda, o cümlədən "Bakı Prosesi" çərçivəsində tolerantlıq ideyalarının təbliğinə şəxsi sədaqətindən yox, həmçinin özündə dözümlülük və dinc-yanaşı yaşamağı ehtiva edən bu dəyərlərin Azərbaycan cəmiyyətinin əsasını təşkil etməsindən gedir.

*Ardı 3-cü səh.*



## Azərbaycanda əhali həm təbii artımla, həm də miqrasiya yolu ilə çoxalır

Dövlət Statistika Komitəsinin məlumatına görə, ölkədə əhalinin sayı ilin əvvəlindən 38 min 118 nəfər və ya 0,4 faiz artıb. Beləliklə, bu il iyul ayının 1-i vəziyyətinə əhalinin sayı 10 milyon 19 min 575 nəfərə çatıb. Əhalinin 52,8 faizini şəhər, 47,2 faizini kənd sakinləri təşkil edir.

Azərbaycanda əhali həmişə olduğu kimi, yenə də təbii artımla çoxalır. Bu ilin birinci yarısında təbii artımın əhalinin hər 1000 nəfərinə görə əmsalı da artıb, 7,6-dan 7,7-yə yüksəlib. Başqa sözlə, təbii artımdakı çoxalma 1068 nəfər olub.

Ədliyyə Nazirliyinin rayon (şəhər) qeydiyyat şöbələri tərəfindən cari ilin yanvar-iyun ayları ərzində 66 min 687 körpənin anadan olduğu qeydə alınıb. Bu, keçən ilin eyni dövründə olduğundan 521 körpə çoxdur. Əhalinin hər 1000 nəfərinə bu göstərici ötən ilin müvafiq dövrü ilə müqayisədə dəyişməyərək eyni səviyyədə (13,6) qalıb. Təzə anadan olan uşaqlardan 1478-i əkiz, 36-sı üçəmdir.

Bu ilin əvvəlindən doğulan körpələrin 46,6 faizini qızlar, 53,4 faizini oğlanlar təşkil edir. Yəni hər 100 qıza 115 oğlan düşür. Bioloji normaya görə isə oğlanların sayına aid rəqəm 105-107 olmalıdır. Dünyaya gələn körpələr arasında oğlanların bioloji normadan çox olması süni müdaxilələr nəticəsində baş verir.

*Ardı 4-cü səh.*

## 43 yeni məktəb

### Növbəti tədris ili üçün isə 253 məktəb təmir olunacaq

**2019-2020-ci tədris ilində ölkə üzrə 164234 şagirdin I sinifdə təhsil alacağı proqnozlaşdırılır. Onlardan 147458-i Azərbaycan, 15852-i isə rus bölməsidir.**

Prezident İlham Əliyevin diqqət və qayğısı nəticəsində, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın təşəbbüsü ilə ümumi təhsil müəssisələrinin infrastrukturunun müasirləşdirilməsi istiqamətində əhəmiyyətli işlər görülüb.

### 1 milyondan çox şagirdin təlim şəraiti əhəmiyyətli şəkildə yaxşılaşdırılıb

Son 5 ildə 600-dən çox, 2003-2018-ci illər ərzində isə 3200-dən çox məktəb binası tikilib və ya əsaslı təmir edilib. İlk dəfə olaraq ucqar kəndlərdə modul tipli məktəb təcrübəsi tətbiq edilib, 2017- 2018-ci illərdə 243 belə məktəb quraşdırılıb. Cari ildə 24 rayonda 3520 şagird yerlik daha 50 modul tipli məktəb istifadəyə veriləcək. Məktəb tikintisi sahəsində həyata keçirilən tədbirlər nəticəsində 1 milyondan çox şagirdin təlim şəraiti əhəmiyyətli şəkildə yaxşılaşdırılıb.

Təhsil müəssisələrinin maddi-texniki bazasının gücləndirilməsi ilə bağlı ölkə Prezidenti tərəfindən imzalanan sərəncamlar təhsilin inkişafına davamlı dövlət qayğısının daha bir nümunəsidir. Belə ki, həmin sərəncamlara əsasən regionlarda modul tipli məktəblərin quraşdırılması məqsədilə 18 milyon manat, Bakı şəhəri və onun qəsəbələrində təhsil müəssisələrinin tikintisi, əsaslı təmiri və bərpası işlərinin davam etdirilməsi məqsədilə 40 milyon manat, təhsil müəssisələrinin qazlaşdırılması məqsədilə 5.7 milyon manat vəsait ayrılıb. Bu istiqamətdə həyata keçiriləcək tədbirlər təhsil infrastrukturunun müasirləşdirilməsinə və keyfiyyət göstəricilərinin daha da artırılmasına imkan verəcək.

*Ardı 3-cü səh.*

2018-ci ildə Gürcüstana 8,7 milyon, Azərbaycana isə 2,7 milyon turist gəlib. Azərbaycanın əhalisinin 10 milyon, Gürcüstanın isə 3,7 milyon nəfər olduğunu nəzərə alsaq, onda riyazi məntiqlə belə çıxır ki, biz gürcülərdən daha çox turist qəbul edə bilərdik. Amma statistik rəqəmlər bizim xeyrimizə deyil. Ona görə də bu suallara müxbirimiz Tbilisidə cavab axtarmağa çalışdı.



## Dost dosta tən gərək

### Azərbaycan-Gürcüstan: oxşar və fərqli cəhətlərimiz

Düşünürdük ki, Tbilisiyə ayağımız dəyən kimi ildə 9 milyona yaxın turist qəbul edən ölkənin hər qarışında əfsanələr, ağla batmayan rəvayətlər və gürcülərin misilsiz qonaqpərvərliyi barədə dastanlar kəşf edəcəyik. Bakı ilə Tbilisi arasındakı eyniliklərin və fərqlərin nə dərəcədə yaxın və nə qədər uzaq olmasını araşdırmağa çalışdıq.

Gürcüstanın ildə bir belə əcnəbi turisti qəbul etməkdə bizdən üstünlüyünün nədə olduğu maraqlı idi. Beləliklə, əhalisinin sayı 3,7 milyon olan Gürcüstanın ildə bizdən üç dəfə artıq turist ziyarət etməsinin sirri nədədir? Təbii ki, bu suala cavab tapmaq üçün Tbilisiyə baş çəkmək, hər şeyi gözlərimizlə görmək lazım idi. Ona görə də fikirləşdik ki, yollardan başlamaq daha məqsədəuyğundur. Turizmin inkişafında ən vacib elementlərdən biri nəqliyyat infrastrukturunun vəziyyətidir.

### Yollar

Həqiqətən də hər şey yoldan başlayır. Yol ölkənin simasıdır, onun gözəlliyini büruzə verir, müasirliyini nümayiş etdirir. "Qırmızı körpü"nü o tərəfə adlayıb Tbilisiyə gedən taksiyə əyləşirik. Sonra da ərinmədik, gürcülərin paytaxtından 350 kilometr aralıda yerləşən Batumiyə də baş çəkdik, yolları da doyunca seyr etdik. Amma Gürcüstanın magistral yollarının üstünlüklərini tapmadıq.

*Ardı 5-ci səh.*



# Milli və bəşəri dəyərlərin böyük hamisi

**XXI əsr elmi-texniki və mədəni tərəqqinin sürətli mərhələyə qədəm qoyması ilə səciyyəvidir. Özlüyündə mütərəqqi mahiyyət kəsb edən bu proses bəşəriyyəti müəyyən arzuolunmaz problemlərlə də üzləşdirir. Təzad bundadır ki, müxtəlif elm sahələrində heyrətamiz ixtira və kəşflər edən, müasir texnologiyalar yaradan insan bəzən bu yeniliklərin doğurduğu fəsadları aradan qaldırmaqda aciz qalır. Bu "sürprizlər" isə insanların təkcə fiziki sağlamlığına deyil, həm də mənəvi-psixoloji durumuna qarşı yönəlir.**

Bu gün nə qloballaşma proseslərinin, nə də elmi-texniki tərəqqinin qarşısına sipər çəkmək mümkündür. Mümkün və həm də zəruri olan bu proseslərin doğurduğu çeşidli problemləri əvvəlcədən müəyyənləşdirərək qabaqlayıcı tədbirlər görmək, cəmiyyətin zərər çəkməsinə yol verməməkdir. Bu qlobal problem hazırda bütün dünya alimlərini səylərini birləşdirməyə, insanların normal fiziki, sosial, mənəvi yaşam tərzinə yönələn açıq təhdidlərə qarşı səmərəli mexanizmlər üzərində düşünməyə məcbur edir. Elmi ictimaiyyətlə yanaşı bu gün "üçüncü sektor"un təmsilçiləri - qeyri-hökumət təşkilatları da qlobal çağırışlara cavab verərək bəşəri səviyyədə aktual olan ekoloji, tibbi, texnoloji və s. problemlərin həllində təşəbbüskarlıq göstərməyə çalışırlar.

Sərbəst bazar münasibətlərinə, özünütənzimləməyə əsaslanan iqtisadi sistemdə insanların sosial müdafiəsinə və rifahına hesablanmış müxtəlif layihələrin, xeyriyyəçilik aksiyalarının həyata keçirilməsi, ən başlıcası, mənəvi-etik dəyərlərin yad təsirlərdən qorunması xüsusilə aktualdır. Bu aktuallıq, ilk növbədə, onunla şərtlənir ki, elmi-texniki inqilabın məhsulu olan müasir informasiya-kommunikasiya texnologiyaları müsbət tərəfləri ilə yanaşı, bəzi hallarda insanlar arasında mənəvi uçurumu, psixoloji səddi dərinləşdirir, mənəvi idealları ifrat maddiləşmənin mənfi təsirlərinə məruz qoyur. Bu təsirləri zərərsizləşdirmək, ictimai düşüncədə xeyirxahlıq, humanizm, insanpərvərlik, mərhəmət kimi ali keyfiyyətlərin möhkəmlənməsinə nail olmaq missiyası isə yalnız yüksək mənəviyyatlı şəxsiyyətlərin üzərinə düşür.

İstənilən cəmiyyətdə ədalət, insanpərvərlik, dürüstlük kimi mənəvi dəyərlərin özünə möhkəm dayaqlar tapması məhz nəcib, alicənab, kamil insanların əzmkar fəaliyyəti sayəsində mümkün olur. Mənəviyyatı maddiyyatdan üstün tutan belə dəyərli ziyalılarımız müxtəlif dövrlərdə yaşasalar da, milli ləyaqət hissinə sadiq qalmış, xeyirxahlıq ənənələrini yaşatmağa, daha da zənginləşdirməyə çalışmışlar.

Hazırda bu nəcib missiyanı yüksək mənəvi məsuliyyətlə üzərinə götürərək şərəflə, əzmlə, təmənnasızlıqla həyata keçirən insanlar arasında Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva ön sırada dayanır. İnamla deyə bilərik ki, Ulu Öndərin ali ideyalarına tapınan, dövlət başçısı İlham Əliyevin həyata keçirdiyi çoxşaxəli siyasətə layiqli töhfələrini verən Azərbaycanın Birinci vitse-prezidentinin milli mədəniyyətin, mənəvi dəyərlər sisteminin qorunmasında, cəmiyyətə sağlam dəyərlərin aşılanmasında müstəsna xidmətləri vardır.

Cəmiyyətdə könüllü sosial müdafiə, xeyriyyəçilik, sosial tərəfdaşlıq, korporativ sosial məsuliyyət və s. prinsiplərin möhkəmlənməsinə, milli özünəməxsusluğu şərtləndirən xüsusiyyətlərimizin qorunmasına çalışan Mehriban xanım Əliyeva Heydər Əliyev Fondunun rəhbəri olaraq ötən 15 ildə cəmiyyətin tərəqqisinə xidmət edən strateji əhəmiyyətli layihələri əzmlə həyata keçirmişdir.

Ümumi şəkildə deyilsə, fondun başlıca məqsədləri həm də xalqın rifahının yüksəldilməsinə yönəlmiş faydalı təşəbbüsləri dəstəkləmək; elm, təhsil, mədəniyyət, incəsənət, səhiyyə və idmanın inkişafını təmin edən layihələrə yardımçı olmaq; milli-mənəvi dəyərlərə sadiq gənclərin yetişdirilməsinə çalışmaq; respublikanın beynəlxalq nüfuzunu daha da artırmaq; milli həqiqətləri dünyaya çatdırmaq kimi strateji əhəmiyyətli vəzifələrdən ibarətdir. Yerli əhəmiyyətli sosial problemlərin həllinə, gənclərin yaradıcı potensialının, bilik və bacarıqlarının aşkara çıxarılmasına, qabiliyyətlərini göstərməsinə, inkişaf etdirməsinə yardımçı olmaq qurumun məqsədləri sırasında mühüm yerlərdən birini tutur.

Fondun Şərqlə Qərb arasında mədəni dialoqa nail olmaq, fərqli sivilizasiyaları bəşəri ideallar naminə bir araya gətirmək, dini tolerantlığı gücləndirmək, gender bərabərliyini təmin etmək istiqamətindəki fəaliyyəti də bəşəri miqyasda rəğbətlə qarşılanır. Son illər UNESKO, ISESCO, UNICEF və digər beynəlxalq qurumlarla birgə keçirilən tədbirlər Azərbaycanın qlobal sferada sülh, tərəqqi və iqtisadi əməkdaşlıq mərkəzi kimi tanındığını, nüfuzunun yüksəldiyini göstərir.

Azərbaycan Prezidenti cənab İlham Əliyevin 21 fevral 2017-ci il tarixli sərəncamı ilə Heydər Əliyev Fondunun prezidenti, Yeni Azərbaycan Partiyasının sədr müavini, UNESKO və ISESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın Azərbaycan Respublikasının Birinci vitse-prezidenti vəzifəsinə təyin edilməsi ölkədəki genişmiqyaslı islahatların tələbindən irəli gələrək idarəetmə sistemində mühüm yenilik olmuşdur. Məsələ burasındadır ki, islahatların hazırkı mərhələsində mütərəqqi meyarlara söykənən çevik idarəetmə modelinin formalaşdırılması Azərbaycan üçün kifayət qədər aktualdır. Yeni dünya reallıqlarını obyektiv dəyərləndirən cənab İlham Əliyevin son illərdə yürütdüyü məqsədyönlü siyasət bu mənada təkcə qlobal iqtisadi böhranın ölkəmizə mənfi təsirlərinin maksimum dərəcədə azaldılmasına deyil, həm də dövlət idarəçiliyində sistem xarakterli keyfiyyət dəyişikliklərinin təmin edilməsinə yönəlmişdir.

Ölkədə və regionda, ümumilikdə, qlobal planda cərəyan edən mürəkkəb siyasi, iqtisadi və humanitar proseslər müasir islahatçı baxışın və idarəetmə formalarının tətbiqini aktuallaşdırdığından dövlət başçısı rəhbəri olduğu komandanın bu çağırışlara hazır olmasını son dərəcə vacib sayır. Xalqın azad siyasi iradəsinin təntənəsi kimi tarixiləşmiş 2016-cı ilin 26 sentyabr referendumu ilə Azərbaycan Respublikasında vitse-prezident vəzifələrinin təsis edilməsi, 2017-ci il 21 fevral tarixində Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın Azərbaycanın Birinci vitse-prezidenti vəzifəsinə təyin olunması bu mənada postneft dövründə Azərbaycanda həyata keçirilən çoxşaxəli islahatların davamlılığını və dövlət idarəçiliyinin səmərəliliyini yüksəltmək məqsədinə xidmət etmişdir.

2018-ci ilin 11 aprelində keçirilmiş prezident seçkilərindən dərhal sonra dövlət başçısının qətiyyətlə həyata keçirdiyi kadr islahatları - müasir təfəkkürlü və idarəetmə sahəsində novatorluğu ilə fərqlənən gəncləri irəli çəkməsi ölkədə islahatların miqyasını və tempini sürətləndirmək, xidmət sahələrində vətəndaş məmnunluğunu, idarəçilikdə səmərəliliyi və şəffaflığı təmin etmək niyyətindən irəli gəlir. Başqa sözlə, son illər həyata keçirilən islahatlar paketinin əsas məqsədini əhalinin sosial rifahının yaxşılaşdırılması, neftdən asılı olmayan dayanıqlı inkişaf strategiyasının formalaşdırılması ilə yanaşı, ümumilikdə dövlət idarəçilik fəlsəfəsinin dəyişdirilməsi təşkil edir. Xüsusi vurğulamaq lazımdır ki, Mehriban xanım Əliyevanın Birinci vitse-prezident kimi 2 illik uğurlu fəaliyyəti islahatlar prosesinin daha da sürətlənməsini təmin etmiş, idarəçiliyə yeni nəfəs gətirmişdir. Onun müasir idarəetmə səriştəsi, yeniliklərə meyilliliyi, ölkə qarşısındakı strateji hədəfləri aydın təsəvvür etməsi ümumən hökumətin fəaliyyətinin səmərəliliyini yüksəltmişdir. Mehriban xanım Əliyevanın da yaxından iştirakı ilə inkişafın əsasını müəyyən edən idarəetmənin modern əsaslarla aparılması, situasiyaların səmərəli idarə olunması qarşıya qoyulan vəzifələrin uğurlu icrasını təmin edir.

Müsahibələrinin birində Azərbaycanın Birinci vitse-prezidenti, YAP sədrinin müavini Mehriban xanım Əliyeva idarəetməyə yeni islahatçı baxışını özünəməxsus şəkildə ifadə edərək rəhbər şəxsdə vacib keyfiyyətlərin olmasını önə çəkmişdir: ***"Düşünürəm ki, rəhbərin mütləq quru insan olması ideyası da müəyyən dərəcədə stereotipdir. Məsuliyyətli - bəli, prinsipial - bəli, iradəli - bəli. Quruluq, sərtlik vacib keyfiyyət deyil. Mənim üçün insanlarla işləmək bacarığı, sənin baxışlarını prinsipcə bölüşən, sənin ardınca getməyə hazır olan həmfikirlər komandası yaratmaq bacarığı daha vacibdir. Çünki onlar anlayırlar ki, sənin işlərin xeyirxahlığa yönəlib. Çox vacibdir ki, bəyan və elan edilənlər həqiqətən baş verənlərlə üst-üstə düşsün. Çünki insanlar hər şeyi görür, hər şeyi anlayırlar".***

İlk müşavirəni Bakı və Sumqayıt şəhərlərinin yataqxanalarında müvəqqəti məskunlaşmış qaçqın və məcburi köçkün ailələrinin köçürülməsi məsələsinə həsr etməsi bir daha təsdiqləmişdir ki, cəmiyyətin xüsusi qayğıya ehtiyacı olan təbəqələrinin problemlərinin həlli Azərbaycanın Birinci vitse-prezidentinin diqqət mərkəzindədir.

Heydər Əliyev Fondunun son 15 ildəki uğurlarını şərtləndirən ən mühüm amillərdən biri də insana olan yüksək münasibət və qayğıdır. Fondun son 15 illik fəaliyyətində Ümummilli Liderin humanist ideyalarını rəhbər tutaraq hər bir vətəndaşın müraciətinə həssaslıqla yanaşması ölkədə fəaliyyət göstərən digər qeyri-hökumət təşkilatları, o cümlədən hakimiyyət orqanları üçün nümunə sayıla bilər. Ən müxtəlif hakimiyyət strukturlarının laqeydliyi, biganəliyi ilə üzləşən, dərdinə əlac tapmayan köməksiz insanlar sonuncu "ümid qapısı" kimi məhz bu ünvanı döyürlər. Bu mənada fond həm də insan və vətəndaş hüquq və azadlıqlarının etibarlı hamisi, müdafiəçisi statusunda çıxış edən ictimai qurumdur.

Fondun prezidenti Mehriban xanım Əliyeva görülən işlər barədə qısaca bunları deyir: ***"Heydər Əliyev Fondunun həyata keçirdiyi layihələrin real nəticələri göz qabağındadır. Bu, yüz mindən çox şagirdin təhsil şəraitinin yaxşılaşmasına xidmət edən yüzlərlə yeni məktəb binasının istifadəyə verilməsi, valideyn himayəsindən məhrum olmuş uşaqlara diqqət və qayğının göstərilməsi, müasir avadanlıqla təchiz edilmiş yeni tibb mərkəzlərinin inşası, gənc istedadların dəstəklənməsi, tarixi abidələrin bərpası, qədim mədəniyyət və incəsənətimizin təbliği və nəhayət, Azərbaycanın əsrlər boyu formalaşmış tolerantlıq ənənələrinin qorunub saxlanıldığı dünyəvi bir ölkə kimi dünyaya tanıdılmasıdır".***

Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun rəhbəri Mehriban xanım Əliyevanın fəal təşəbbüsləri həm də Azərbaycanın bəşəri miqyasda tanınmasına, ölkəmiz haqqında obyektiv ictimai rəyin formalaşmasına, həmçinin respublikamızın beynəlxalq miqyaslı tədbirlərinin təşkilatçısına çevrilməsinə xidmət edir. Azərbaycanın birinci xanımı Avropa siyasi leksikonunda ölkə həqiqətlərini dünyaya çatdırır. Çıxışlarında bəşəriyyəti sülhə, sabitliyə, qarşılıqlı faydalı əməkdaşlığa, qlobal problemlərin birgə həllinə səsləyən qlobal çağırışların yer alması ölkənin birinci xanımının timsalında Azərbaycan qadını haqqında dolğun təsəvvür formalaşdırır. Qadınlarımıza xas nəcibliyi, zəngin daxili mədəniyyəti, ziyalılığı, humanizmi, kübarlığı təcəssüm etdirir. Ümumilikdə, Mehriban xanım Əliyeva özünün peşəkar fəaliyyəti, zəngin təcrübəsi, böyük humanizmi və hadisələrə genişmiqyaslı baxış bucağı ilə Azərbaycan tarixində qadın hərəkatının yeni səhifələrini yazır.

Fondun prezidentinin ötən 15 ildə əsas fəaliyyət istiqamətlərindən biri də cəmiyyətdə xeyriyyəçilik institutunun inkişafıdır. Müasir dövrdə iqtisadi inkişaf səviyyəsindən asılı olmayaraq hər bir dövlətdə sosial müdafiəyə, köməyə, xeyirxahlığa ehtiyacı olan köməksiz təbəqə olur. Bazar iqtisadiyyatının sərt reallıqları ilə uzlaşmamasına rəğmən əksər dövlətlər həssas sosial təbəqələrin ehtiyaclarına, problemlərinə biganə yanaşmır, onları himayəsinə götürürlər. Azərbaycan dövlətinin bu istiqamətdəki fəaliyyəti isə xüsusilə diqqəti çəkir - respublikamızın dövlət büdcəsində sosialyönümlü xərclər, eləcə də insan inkişafına xidmət edən, iqtisadi səmərə məqsədi güdməyən əsaslı dövlət kapital qoyuluşları xüsusi çəkiyə malikdir.

Dövlət başçısı İlham Əliyev ölkədə yoxsulluğun yaxın illərdə aradan qaldırılmasını, insanları qayğılandıran bütün sosial problemlərin həllini hökumət qarşısında mühüm vəzifələrdən biri kimi müəyyənləşdirmişdir. Bununla belə, mövcud problemlərin həllini bilavasitə hökumətin üzərinə qoymaq, vətəndaş cəmiyyəti institutlarını məsuliyyətdən tamamilə kənarlaşdırmaq da düzgün yanaşma olmayıb, sovet dövrünün qeyri-adekvat, yanlış düşüncə tərzindən irəli gəlir. Bu mənada Heydər Əliyev Fondunun dövlətin fəaliyyətinə hərtərəfli dəstəyə əsaslanan nəcib, xeyirxah fəaliyyəti digər qurumlar üçün nümunə, örnək sayıla bilər. Fondun fəaliyyəti Azərbaycan üçün müəyyən mənada yeni olan xeyriyyəçilik institutunun inkişafına xidmət edir.

İnsan hüquq və azadlıqlarının müdafiəsi, humanizm ideyalarının təşviqi də fondun fəaliyyətində əsas istiqamətlərdən biridir. Hələ Milli Məclisin deputatı olduğu dönəmdə - 2007, 2009, 2013 və 2016-cı illərdə amnistiya təşəbbüsü ilə çıxış edən fondun prezidenti Mehriban xanım Əliyevanın insan hüquq və azadlıqlarına necə həssaslıqla yanaşdığı bir daha təsdiqini tapmışdır. Amnistiya qanunverici tərəfindən humanizm və mərhəmət hissinin mücəssəməsi olub, cinayət törətmiş şəxslərin və məhkumların vəziyyətini yüngülləşdirir, onları islah edir. Azərbaycan parlamentarizmi tarixində ilk dəfə olaraq Milli Məclisin deputatı tərəfindən irəli sürülmüş və geniş ictimai dəstək almış amnistiya aktları böyük mənəvi-əxlaqi və siyasi məzmun kəsb etmişdir.

Heydər Əliyev Fondunun gənclərin fiziki və mənəvi sağlamlığı, milli-genetik ruhunun qorunması naminə həyata keçirdiyi sosialyönümlü layihələr sırasında səhiyyəyə yardım, bu sahənin infrastrukturunun yeniləşdirilməsi, vətəndaşlara göstərilən tibbi xidmətin səviyyəsinin yüksəldilməsi də mühüm yer tutur. İxtisas etibarilə tibb elminin incəliklərinə dərindən bələd olan Mehriban xanım Əliyeva Azərbaycan səhiyyəsində mövcud olan problemləri daha yaxşı görməklə, ictimaiyyəti həmin problemlərin həlli istiqamətində səfərbər etməyə, ələlxüsus tibbi yardıma böyük ehtiyacı olan aztəminatlı vətəndaşlara yüksək diqqətlə, həssaslıqla yanaşmağa çalışır.

Fondun "Diabetli uşaqlara ən yüksək qayğı" və "Talassemiyasız həyat naminə" layihələri də cəmiyyətdə böyük rəğbətlə qarşılanmış, bu xəstəliklərdən əziyyət çəkən insanların, ələlxüsus da körpələrin və uşaqların şəfa tapmasına, pulsuz müayinə və müalicə almasına imkan yaratmışdır. Azərbaycanın birinci xanımının dəstəyi ilə ölkədə bir sıra yeni tibb müəssisələri, o cümlədən Talassemiya Mərkəzi inşa olunaraq insanların istifadəsinə verilmişdir.

Beynəlxalq miqyasda fəaliyyət göstərən, Rusiya, ABŞ, Türkiyə, Rumıniya və digər ölkələrdə filialları olan fond müxtəlif ölkələrdə təbii fəlakətlərdən, o cümlədən zəlzələdən ziyan çəkən insanlara da yardımlar etmişdir. Pakistanda zəlzələdən ziyan çəkən insanlara humanitar yardımın göstərilməsi bu missiyanın Azərbaycanın hüdudları ilə məhdudlaşmadığını göstərir. Həmin tədbirlərin davamı olaraq 2012-ci il iyunun 14-də - Beynəlxalq Donorlar Günündə Pakistanda talassemiya, hemofiliya və qan xərçəngindən əziyyət çəkən xəstələrin müalicəsi ilə məşğul olan bir neçə xəstəxananı özündə birləşdirən Həmzə Xeyriyyə Fonduna Heydər Əliyev Fondunun adından xüsusi qanköçürmə və kiçik laboratoriya ilə təchiz olunmuş bir təcili tibbi yardım avtomobili, habelə 2 min qanköçürmə paketi təqdim edilmişdir.

Azərbaycanda kimsəsiz uşaqlar üçün nəzərdə tutulmuş müəssisələrə sığınan körpələrin problemlərinin həlli də Birinci vitse-prezident Mehriban xanım Əliyevanın qarşıya qoyduğu əsas vəzifələrdən biridir. "Uşaq evləri və internat məktəblərinin inkişafı proqramı" bilavasitə onun təşəbbüsü və rəhbərliyi ilə hazırlanmış, Bakıda və ətraf qəsəbələrdə yerləşən uşaq evi və internat məktəblərdə mövcud problemlər öyrənilmiş və aradan qaldırılması üçün konkret işlər görülmüşdür.

UNESKO və ISESCO-nun xoşməramlı səfiri kimi fərqli mədəniyyətləri bir araya gətirmək missiyasını üzərinə götürmüş Mehriban xanım Əliyevanın bu sahədəki fəaliyyəti isə 90-cı illərin ortalarından başlayır. O, hələ 1995-ci ildən "Azərbaycan Mədəniyyətinin Dostları" Xeyriyyə Fondunun rəhbəri kimi ağır böhranla üzləşmiş milli mədəniyyətimizə böyük qayğı və diqqət göstərmişdir. Həmin vaxtdan musiqi təhsili və gələcək nəslin maarifləndirilməsi işi fondun daim diqqət mərkəzində olmuş, ardıcıl şəkildə təşkil edilən xeyriyyə konsertləri mədəniyyətimizin zəngin ənənələrinin qorunması işinə töhfə vermişdir.

Mehriban xanım Əliyevanın 2004-cü ilin sentyabrında UNESKO-nun xoşməramlı səfiri seçilməsi ilə fondun milli irsin mühafizəsi sahəsindəki fəaliyyəti bir qədər də genişlənmişdir. Azərbaycanın görkəmli şəxsiyyətlərinin və əlamətdar hadisələrin yubileylərinin UNESKO çərçivəsində qeyd edilməsi bu qurumla əlaqələrin yüksək səviyyəsindən xəbər verir. Füzulinin 500 illik, "Kitabi-Dədə Qorqud" dastanının 1300 illik, "Leyli və Məcnun" operasının ilk tamaşasının, dünya şöhrətli alim, akademik Yusif Məmmədəliyevin, görkəmli yazıçı və ədəbiyyatşünas Mir Cəlal Paşayevin 100 illik yubileyləri, habelə bu qəbildən olan digər tədbirlər UNESKO çərçivəsində böyük təntənə ilə qeyd edilmişdir.

Heydər Əliyev Fondunun rəhbərinin böyük səyləri və nüfuzu sayəsində Qobustan Dövlət Tarixi-Bədii Qoruğu, İçərişəhər, Qız qalası, Şirvanşahlar Sarayı Kompleksi, Şəki şəhərinin tarixi mərkəzi və Xan Sarayı UNESKO-nun Dünya İrsi Siyahısına, Azərbaycan muğamı, aşıq, xalçaçılıq, tar ifaçılığı və hazırlanması sənətləri, Novruz bayramı, dolma, lavaş və kəlağayı, Lahıc misgərlik sənəti UNESKO-nun Bəşəriyyətin Qeyri-Maddi Mədəni İrs üzrə Reprezentativ Siyahısına, çövkən oyunu isə UNESKO-nun təcili qorunmağa ehtiyacı olan Qeyri-Maddi Mədəni İrs Siyahısına daxil edilmişdir.

Heydər Əliyev Fondunun prezidenti Azərbaycanın tanınmış oğul və qızlarının adı ilə bağlı tarixi abidələrin bərpasını isə yalnız keçmişə hörmət və tarixi həqiqətin bərpası kimi deyil, eyni zamanda gənc nəsli milli-vətənpərvərlik ruhunda tərbiyə etməyin əsas elementi, azərbaycançılıq ideologiyasının inkişafı kimi qiymətləndirir. Bununla yanaşı, fond xarici ölkələrdəki unikal mədəniyyət abidələrinin bərpası prosesində də yaxından iştirak edir. Fond Fransada Dünya Mədəni İrs siyahısına daxil edilmiş Versal sarayının, Parisdə on dördüncü əsrə aid Notr-Dam, Strasburq Kafedral kilsələrinin, İkinci Dünya müharibəsində dağılmış Berlin şəhər Sarayının, həmçinin Vatikan arxivlərində saxlanılan Orta əsr Azərbaycan əlyazmalarının bərpa olunmasına kömək etmişdir. Heydər Əliyev Fondu ilə Müqəddəs Arxeologiya üzrə Papa Komissiyası arasında imzalanmış Anlaşma Memorandumuna əsasən, fond Romanın Kapitoli Muzeyində bərpa işlərinin həyata keçirilməsinə də dəstək vermişdir.

Heydər Əliyev Fondunun fəaliyyətində milli təhsil sisteminin müasirləşdirilməsinə, intellektual tərəqqiyə dəstək layihələri də xüsusi yer tutur. Şübhəsiz müasir tələblərə cavab verən yeni məktəblərin inşasına nail olmadan, təlim-tədris prosesinə lazımi şərait yaratmadan, dünya ölkələrinin mütərəqqi ənənələrini mənimsəmədən təhsil sistemini müasirləşdirmək, bu sahədə uğurlu nəticələr əldə etmək mümkün deyildir. Heydər Əliyev Fondunun təşəbbüsü ilə həyata keçirilən, dövlət qurumlarının və vətəndaş cəmiyyətinin bəzi strukturlarının da dəstəklədiyi "Yeniləşən Azərbaycana yeni məktəb" layihəsi çərçivəsində yalnız 2005-ci ildə Azərbaycanın müxtəlif bölgələrində rekord sayda - 132, 2006-cı ildə daha 100 ədəd, umumilikdə 300-dən çox yeni məktəb binasının tikilərək istifadəyə verilməsi və lazımi avadanlıqlarla təchiz olunması dövlətin bu sahədə həyata keçirdiyi işlərə əvəzsiz töhfədir.

Azərbaycanın Birinci vitse-prezidentinin cəmiyyətin maariflənməsinə və milli-mənəvi intibaha xidmət edən təhsil layihələrinin ümdə məqsədi yeni məktəblərin inşası, onların maddi-texniki təchizatının yaxşılaşdırılmasıdır. Fondun "Təhsilə dəstək" layihəsi də özünün humanist məqsədləri ilə diqqəti çəkir. Heydər Əliyev Fondu hər il layihə çərçivəsində Ermənistanın Azərbaycana təcavüzü nəticəsində daimi yaşayış yerlərini tərk etmiş qaçqın, məcburi köçkün ailələrindən olan birinci sinif şagirdlərinə çanta və məktəb ləvazimatı hədiyyə edir. Gürcüstanda yaşayan azərbaycanlı birinci sinif şagirdlərinə, Qax, Zaqatala, Balakən rayonlarında tədrisin gürcü dilində aparıldığı məktəblərə hər il yeni dərslik və tədris ləvazimatları göndərilir.

Ölkəyə rəhbərlik etdiyi son 16 ildə milli maraqlara söykənən fəal xarici siyasət yeridərək "Biz müdafiədə deyil, hücumda olmalıyıq!" deyən Prezident İlham Əliyev Ermənistanın Azərbaycana təcavüzü ilə bağlı həqiqətlərin beynəlxalq aləmə çatdırılmasını, işğalçının ən müxtəlif səviyyələrdə ifşasını, bədnam erməni lobbisinə qarşı effektiv əks-hücumun təşkilini vətəninə bağlı hər bir azərbaycanlının ümdə vəzifəsi sayır. Son illər Azərbaycanın xaricdəki diasporu, səfirlikləri ilə yanaşı ayrı-ayrı ictimai qurumların - dərnəklərin, qeyri-hökumət təşkilatlarının, cəmiyyətlərin də bu prosesdə iştirakının intensiv xarakter alması isə son dərəcə sevindiricidir. Heydər Əliyev Fondunun Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması, ölkəmizin milli-mənəvi irsinin dünya miqyasında tanıdılması istiqamətindəki ardıcıl və sistemli fəaliyyəti bu baxımdan xüsusi vurğulanmalıdır.

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, təcavüzkarın ifşası baxımından Heydər Əliyev Fondunun müxtəlif dillərdə nəşr etdirdiyi kitablar da mühüm əhəmiyyətə malikdir. İngilis, fransız, ərəb, alman, rus dillərində "Qarabağ həqiqətləri" bukletlər toplusunun hazırlanması, Azərbaycanın xaricdəki səfirlikləri, diaspor təşkilatları, habelə yerli qeyri-hökumət təşkilatları vasitəsilə yayılması bu istiqamətdə son dərəcə uğurlu layihələrdən biri olmuşdur. Bukletlər toplusu "Qarabağın tarixi haqqında məlumat", "Qarabağ münaqişəsinin başlanması", "Xocalı soyqırımı", "Azərbaycana qarşı erməni təcavüzünün nəticələri", "Erməni terror təşkilatlarının Azərbaycana qarşı fəaliyyəti" kitablarından ibarətdir. Layihənin davamı olaraq Heydər Əliyev Fondu Xarici İşlər Nazirliyi ilə birgə "Azərbaycana qarşı müharibə: Mədəni irsin hədəfə alınması" kitabını ingilis dilində çapdan buraxmışdır. Kitaba işğal olunmuş Azərbaycan rayonlarının hər birində olan mədəni sərvətlərin siyahısı, xəritələr, habelə Ermənistan ərazisində, işğal altındakı torpaqlarda tarixi-mədəniyyət abidələrinin əvvəlki və hazırkı vəziyyətini əks etdirən videomateriallar əlavə edilmişdir.

Son 15 ildə Rusiyada, Rumıniyada, Türkiyədə, Böyük Britaniyada, ABŞ-da filiallarını açan fond fəaliyyətini beynəlxalq müstəvidə genişləndirmək imkanı qazanmışdır. Fondun Moskva filialının fəaliyyəti bu baxımdan daha qabarıq hiss olunur. Azərbaycanın müasir gəncliyinin layiqli, vətənpərvər təmsilçisi kimi bu missiyanı üzərinə götürmüş Leyla xanım Əliyeva fondun Moskva filialına yüksək səviyyədə rəhbərlik edir.

İslam Konfransı Təşkilatının gənclər forumu ilə "Xocalıya ədalət!" Beynəlxalq kampaniyasına start verilməsi də fondun Moskva filialının fəaliyyəti ilə bağlıdır. Bu kampaniya İKT Gənclər Forumunun Mədəniyyətlərarası Dialoq üzrə baş koordinatoru Leyla Əliyevanın 2008-ci il mayın 8-də irəli sürdüyü təşəbbüs əsasında həyata kecirilir. Tunisdə İSESCO-nun Baş Assambleyasının 10-cu sessiyasında imzalanmış protokol "Xocalıya ədalət!" Beynəlxalq Məlumat Təşviqat kampaniyasına dəstək verilməsini və dünya miqyasında təhsil, elm və mədəniyyət sahələrində birgə tədbirlərin həyata keçirilməsini nəzərdə tutur.

Yeni Azərbaycan Partiyasının sədr müavini və Azərbaycanın Birinci vitse-prezidentinin bəşəri ideallara sadiqliyi, habelə qlobal problemlərin həllinə sanballı töhfələr vermək əzmi ölkəmizin beynəlxalq səviyyədə mənafelərini təmin edir. Mehriban xanım Əliyeva son iki ildə dövlət idarəçiliyində üzərinə götürdüyü şərəfli və məsuliyyətli missiya ilə Azərbaycanın dünyadakı nüfuz və mövqelərini daha da möhkəmləndirir, onun demokratik dəyərlərə bağlı multikultural və tolerant ölkə kimi tanınmasını təmin edir. Xüsusi vurğulamaq lazımdır ki, I Avropa Oyunlarına və IV İslam Həmrəyliyi Oyunlarına hazırlıq üzrə təşkilat komitələrinə uğurla rəhbərlik etmiş Mehriban xanım Əliyeva ölkəmizin idman və əlverişli turizm məkanı kimi tanınmasını da təmin etmişdir.

*Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun rəhbəri Mehriban xanım Əliyeva dəyərli vaxtını, enerjisini insanların rifahına, firavanlığına, ali bəşəri dəyərlərin təbliğinə sərf edir. Ən təqdirəlayiq cəhət bundadır ki, onun həyata keçirdiyi bu böyük layihələr təmənnasızlıq prinsipinə söykənir. Bu fəaliyyətin fəlsəfəsində insanlara yaxşılıq kimi mütərəqqi bir ideya, nəcib amal daim ön plandadır. Şübhə yoxdur ki, fond ən müxtəlif sahələrdəki fəaliyyətini bundan sonra da davam etdirəcək, Ulu Öndər Heydər Əliyevin ölməz ideyalarına tapınmaqla milli intibah prosesinə layiqli töhfəsini verəcəkdir.*

**Qüdrət KƏRİMOV,**
***"Xəzər" QSC-nin sədri,***
***iqtisad elmləri doktoru***

## Mark ŞNAYER: "Birinci xanım Mehriban Əliyeva Azərbaycanda qadın hüquqlarının və imkanlarının genişləndirilməsi istiqamətində çox iş görüb"

Əvvəli 1-ci səh.

Mədəniyyətlərarası və dinlərarası dialoq və qarşılıqlı anlaşma yüz illər boyu Azərbaycan cəmiyyətinin əsası olub və belə olaraq da qalır. Bu, yeni platforma deyil, özözlüyündə unikal hadisədir".

Ravvin Şnayer əlavə edib ki, Azərbaycana tez-tez səfər edir və mədəniyyətlərarası və dinlərarası dialoq üzrə bir çox qlobal konfranslarda iştirak edir. "Elə bir konfrans yoxdur ki, orada birinci xanım Mehriban Əliyeva iştirak etməsin və dünyanın bütün ölkələrindən gəlmiş qonaqları salamlamasın. Qeyd etmək vacibdir ki, bütün bu illər ərzində Birinci vitse-prezident Azərbaycanı mədəniyyətlərarası platformada dünyanın paytaxtına çevirmək üçün şəxsi səylərini əsirgəməyib. Qeyd etmək yerinə düşər ki, o, bu işləri öz həyat yoldaşı, Prezident İlham Əliyev ilə mütləq tərəfdaşlıq şəraitində həyata keçirir. Bundan başqa, birinci xanım Azərbaycanda qadın hüquqlarının və imkanlarının genişləndirilməsi istiqamətində də çox iş görüb. Bunun sayəsində o, bütün dünyadakı müsəlman qadınların əksəriyyətini ruhlandırıb. Heyrətamiz haldır ki, onun liderliyinin atributları, humanizm və dözümlülük dəyərlərinə sədaqət prinsipləri Azərbaycan cəmiyyətinin təməlini təşkil edən ənənələrə uyğundur" deyə ABŞ Etnik Anlaşma Fondunun prezidenti vurğulayıb.

Mark Şnayer həmçinin Azərbaycandakı yəhudi icması haqqında da danışıb: "Azərbaycan yəhudilərindən söz düşmüşkən qeyd etməliyəm ki, bu icma öz-özlüyündə bir fenomendir. Maraqlıdır ki, əhalisinin əksəriyyəti müsəlman olan bu ölkədə 25 minlik yəhudi icması mövcuddur. Bu insanlar öz dininə sərbəst şəkildə etiqad etməklə və sülh şəraitində yaşamaqla yanaşı, həmçinin Azərbaycan xalqı, Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva tərəfindən sevilirlər. Mən bu ilin mayında Bakıya səfərim zamanı ilk koşer restoranının açılışında iştirak etdim. Bu, mədəni nöqteyinəzərdən qeyri-adi təcrübə idi. Ayrıca olaraq yüksək xidmət səviyyəsini də qeyd etmək lazımdır. Bakıda yəhudi restoranının olduğunu görmək çox xoşdur. Azərbaycan mədəniyyətlərarası və dinlərarası dialoq, dinc yanaşı yaşamaq ideyalarının islam dünyasında təbliği, İsraillə və bütün dünyadakı yəhudi icmaları ilə dostluq əlaqələri üzrə aparıcı ölkədir. Mən Azərbaycandan söz açanda səs tonumda həmişə ruh yüksəkliyi hiss etmək mümkündür. Şadam ki, bu cür ölkə mövcuddur və dünya ictimaiyyəti mədəniyyətlərarası dialoq və dinc yanaşı yaşamaq ideyalarına bu dərəcədə sadiq olan ölkəni qiymətləndirməlidir" deyə ravvin Şnayer sözlərinə yekun vurub.

## Milli Kitabxana Direktorları Konfransının növbəti iclası Yunanıstanın Afina şəhərində keçirilib



Milli Kitabxana Direktorları Konfransının növbəti illik iclası IFLA Dünya Kitabxana və İnformasiya Konqresi çərçivəsində Yunanıstanın Afina şəhərində keçirilib.

Azərbaycan Milli Kitabxanasından AZƏRTAC-a bildirilib ki, tədbirin əsas mövzusu "Gələcək nəsil" olub. Azərbaycanı Milli Kitabxananın direktor müavini Ədibə İsmayılova təmsil edib.

İclasda Milli Kitabxanalar Daimi Komitəsinin hesabatı dinlənilib. "Milli Kitabxanalar bu gün və gələcəkdə niyə vacibdir?", "Dünya Milli Kitabxanalarının funksiyaları və fəaliyyətinin vizuallaşdırılması", "Gənclərin mütaliəyə marağını artırmaq məqsədilə Milli Kitabxanalarda həyata keçirilən layihələr" mövzularında təqdimatlar olub, diskussiyalar aparılıb. Müzakirələrdə gənclərin mütaliə maraqlarının artmasında Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi ilə Milli Kitabxananın birgə layihəsi olan "Açıq Kitabxana" layihəsi müsbət rəy alıb.

Yekun olaraq Milli Kitabxana Direktorları Konfransının sədri Lily Knibbeler 2019-cu ildə görülən işlər haqqında hesabat verib. İllik iclasdan sonra Yunanıstan Milli Kitabxanasının baş direktoru Filippos Tsimpoglou qonaqları Milli Kitabxananın yeni binası ilə tanış edib.

Sonda iclas iştirakçıları IFLA Dünya Kitabxana və İnformasiya Konqresi iştirakçıları üçün nəzərdə tutulmuş Mədəniyyət proqramına qatılıb.

## Leyla ABDULLAYEVA: "Ermənistanın baş naziri dünya birliyini aldatmağa müvəffəq olmayacaq"

Ermənistanın baş naziri N.Paşinyanın Dağlıq Qarabağ Muxtar Vilayətinin (DQMV) Azərbaycan SSR-dən zor gücü ilə ayrılmasını Azərbaycanın SSRİ-dən çıxması prosesi ilə əsaslandırmaq cəhdi onun hüquqi savadsızlığının və ya yalana əl atmasının sübutudur.

Ermənistanın baş naziri əgər xalqını barmağına dolamaq istəyirsə, bu, onun öz işidir. Lakin o, dünya birliyini aldatmağa müvəffəq olmayacaq, xüsusilə də məsələnin hüquqi tərəfinə gəldikdə.

AZƏRTAC xəbər verir ki, bu fikirlər Azərbaycan Xarici İşlər Nazirliyinin mətbuat katibi Leyla Abdullayevanın açıqlamasında yer alıb.

Mətbuat katibi deyib: "İlk olaraq, Dağlıq Qarabağın Azərbaycan SSR-in tərkibində muxtar vilayət statusu 1936-cı və 1977-ci illər SSRİ konstitusiyalarında təsbit edilmişdir, üstəgəl müttəfiq respublikanın ərazisi onun razılığı olmadan dəyişdirilə bilməzdi. Erməni millətçilərinin DQMV-nin Azərbaycan SSR-dən ayrılmasına yönəlmiş qanunsuz hərəkətləri ilə əlaqədar olaraq, SSRİ Ali Soveti öz qərarlarında mövcud sərhədlərin dəyişdirilməsinin mümkünsüzlüyünü birmənalı şəkildə təsdiq etdi. Beləliklə, Dağlıq Qarabağın Azərbaycan SSR-dən ayrılması cəhdləri SSRİ Konstitusiyasının açıq şəkildə pozulması ilə müşayiət olunurdu və buna görə də heç bir hüquqi nəticə doğurmadı.

İkincisi, Ermənistan tərəfinin tez-tez istinad etdiyi 1990-cı il 3 aprel tarixli "Müttəfiq respublikanın SSRİ-dən çıxması ilə əlaqədar məsələlərin həlli qaydası haqqında" SSRİ qanununun məqsədi müttəfiq respublikaların SSRİ-dən ayrılması halında SSRİ daxilindəki qarşılıqlı münasibətləri müəyyən bir prosedur yaratmaqla tənzimləməkdən ibarət idi. Müttəfiq respublikanın SSRİ-dən çıxması yalnız mürəkkəb çoxmərhələli prosedurdan keçdikdən və nəticədə SSRİ Xalq Deputatları Qurultayı tərəfindən müvafiq qərar qəbul edildikdən sonra tamamlanmış hesab edilə bilərdi. Lakin qeyd olunan qanun heç vaxt tətbiq edilmədi və heç bir müttəfiq respublika, o cümlədən Azərbaycan və Ermənistan bu qanunda nəzərdə tutulmuş ayrılma qaydasından istifadə etmədi.

Üçüncüsü, SSRİ dağıldıqdan sonra Azərbaycan BMT-yə, eləcə də digər beynəlxalq təşkilatlara SSRİ dövründəki öz inzibati sərhədləri çərçivəsində daxil olub və həmin hüdudlar bütün dünya ictimaiyyəti tərəfindən Azərbaycanın beynəlxalq sərhədləri qismində tanınır. Ermənistanın iddia etdiklərindən fərqli olaraq, Müstəqil Dövlətlər Birliyinin məqsəd və prinsiplərinə dair 21 dekabr 1991-ci il tarixli Almatı Bəyannaməsini imzalayan dövlətlər, o cümlədən Ermənistan öz üzərlərinə bir-birinin ərazi bütövlüyünü və mövcud sərhədlərin toxunulmazlığını tanımaq və hörmət etmək öhdəliyini götürüblər.

Seçicilərinə qızıl dağlar vəd edən Ermənistan baş nazirinin iddiaları mövcud vəziyyətdən konkret çıxış yollarının göstərilməməsi səbəbindən daha çox iflasa uğrayır. Çünki bu vəziyyətin düzəldilməsi qonşu Azərbaycanla münasibətlər normallaşdırılmadan mümkün deyil. Burada, həmçinin iqtisadiyyat, demoqrafiya, hərbi və digər amilləri nəzərə almaq lazımdır.

Bununla yanaşı, qeyd etmək istərdik ki, Ermənistanın bu və ya digər rəhbərinin mövqeyindən asılı olmayaraq, Azərbaycan özünün beynəlxalq tanınmış və əzəli torpaqları, o cümlədən Dağlıq Qarabağ bölgəsi üzərində suverenliyini bərpa edəcək, çünki ədalət və hüquq Azərbaycanın tərəfindədir. Bu vaxt gəlib çatacaq və bölgədə vəziyyətin inkişafını nəzərə alaraq bu vaxt hər an yetişə bilər".

Yeni dərs ili qarşısında

# 43 yeni məktəb

## Növbəti tədris ili üçün isə 253 məktəb təmir olunacaq

Əvvəli 1-ci səh.

Təhsil Nazirliyinin mətbuat xidmətindən verilən məlumata əsasən 2019-2020-ci tədris ilinin əvvəlində nazirlik tərəfindən 43 məktəb binasının şagirdlərin istifadəsinə verilməsi nəzərdə tutulur. 2019-cu ildə respublika üzrə 253 məktəb cari təmir olunacaq.

### 322 adda dərslik və metodik vəsait çap edilib

2019-2020-ci tədris ilinə dövlət ümumi təhsil müəssisələrinin I-XI sinifləri üçün 322 adda 5 668 865 nüsxə dərslik və metodik vəsait çap edilib. Dərsliklərin sentyabrın 6-dək şagirdlərə çatdırılması nəzərdə tutulur.

Müasir tələblərə cavab verən dərsliklərin hazırlanması məqsədilə Təhsil Nazirliyinin nəzdində fəaliyyət göstərən Təhsil İnstitutunda yaradılmış Tədris resursları Mərkəzində baza (ehtiyat) dərsliklərin hazırlanmasına başlanılıb. Artıq həmin mərkəz tərəfindən ümumtəhsil müəssisələrinin 1-ci sinifləri üçün "Azərbaycan dili (tədris dili)" və "Riyaziyyat" fənləri üzrə yeni baza (ehtiyat) dərsliklər hazırlanıb. Bu dərsliklər 2018-2019-cu tədris ilindən başlayaraq seçilmiş 100 məktəbin pilot siniflərinin sınaq istifadəsinə verilib. Sınaq istifadə qarşıdan gələn 2019-2020-ci tədris ilində də davam etdiriləcək. Proses hələ ki ümumtəhsil müəssisələrinin 1-ci siniflərini yalnız 2 fənn üzrə əhatə edir. Növbəti illərdə bu dərsliklərin siyahısı genişləndiriləcək və ardıcıl olaraq digər təhsil dövrləri üçün yuxarıda təsvir edilən analoji prosedurlardan keçiriləcək. Hazırlanan dərsliklər Azərbaycanda qüvvədə olan təhsil proqramlarına (kurikulumlarına) adaptasiya edildikdən sonra onlar ekspertiza ediləcək, sınaq istifadəyə veriləcək, nəticələr mütəxəssislər tərəfindən təhlil ediləcək, dərsliklər üzərində müvafiq təkmilləşdirmələr aparıldıqdan sonra onlar kütləvi istifadəyə veriləcək.

### Paytaxt məktəblərində də təmir-tikinti işləri aparılır

Bakı Şəhəri üzrə Təhsil İdarəsinin (BŞTİ) mətbuat xidmətindən verilən məlumata əsasən, paytaxt məktəblərinin I sinfinə elektron qeydiyyat (mektebeqebul.edu.az) üzrə 47 minə yaxın sorğu yerləşdirilib. Onlardan 43 mindən çoxu ümumi təhsil məktəblərini, 3 mindən çoxu isə lisey və gimnaziyaları seçib. Bu göstərici paytaxtdakı dövlət ümumi təhsil müəssisələrinin I sinfinə şagird qəbulu proqnozunun təxminən 95 faizindən çoxdur.

Hazırda BŞTİ-nin tabeliyində fəaliyyət göstərən 6 məktəbdə əsaslı təmir işləri, 7 məktəbin mövcud binası sökülərək yenidən tikintisi davam etməkdədir. Bir təhsil müəssisəsində yaranmış şagird sıxlığını aradan qaldırmaq məqsədilə əlavə korpus inşa olunur. Həmçinin Bakı şəhərində Təhsil Nazirliyi tərəfindən 58 məktəbdə cari təmir işləri aparılır.

Sabunçu rayonu ərazisində şagird sıxlığının aradan qaldırılması məqsədilə Heydər Əliyev Fondu tərəfindən Kürdəxanı qəsəbəsində 960 şagird yerlik yeni məktəb binasının tikintisi nəzərdə tutulur.

39, 113, 129 nömrəli tam orta məktəblərdə əsaslı təmir işləri aparılır, 97, 101, 155 və 300 nömrəli tam orta məktəblərin köhnə korpuslarının sökülərək yenidən tikintisi davam etdirilir. 154, 205 və 208 nömrəli tam orta məktəblərin isə bütövlükdə binalarının sökülərək yenidən tikintisi həyata keçirilir.

Bundan əlavə, ehtiyac olan ərazidə daha bir yeni məktəb (161 nömrəli tam orta məktəb) binasının tikintisi başa çatdırılıb.

Həmçinin 90 nömrəli tam orta məktəbin köhnə korpuslarının sökülərək yenidən tikintisi, yeni korpusun əsaslı təmiri, 251 nömrəli tam orta məktəb üçün isə əlavə korpusun tikintisi planlaşdırılır.

Hazırda həyata keçirilən təmir və tikinti işlərinin yeni tədris ili başlayana qədər başa çatdırılması nəzərdə tutulur.

### 5 yaşlı uşaqların 90 faizinin məktəbəhazırlığa cəlb olunması üçün imkan yaradılıb

Məktəbəhazırlıq qrupları üzrə məlumat verən qurum rəsmisi bildirdi ki, dövlət ümumi təhsil müəssisələrində sözügedən qruplar 2015-2016-cı tədris ilindən fəaliyyətə başlayıb. Məktəbəhazırlıq qruplarına qəbul 4-cü tədris ilidir ki, elektron sistem vasitəsilə həyata keçirilir. Bu isə vətəndaşların rahatlığı və subyektiv amillərin aradan qaldırılması baxımından mühüm əhəmiyyətə malikdir.

Azərbaycanda 2015-2016-cı tədris ilində məktəbəhazırlıq proqramı bütün 5 yaşlıların 24 faizini əhatə edirdisə, 2016-2017-ci dərs ilində bu göstərici 55, 2017-2018-ci tədris ilində 65, 2018-2019-cu dərs ilində 75 faiz həddinə çatdırılıb. 2019-2020-ci dərs ilində isə 5 yaşlı uşaqların 90 faizinin məktəbəhazırlıq qruplarına cəlb olunması üçün imkan yaradılıb.

2016-2017-ci dərs ilində BŞTİ-nin tabeliyində olan ümumi təhsil məktəblərində 261 məktəb üzrə 839 qrupa 23 130 uşaq, 2017-2018-ci dərs ilində 263 məktəb üzrə 868 qrupa 24 209 uşaq, 2018-2019-cu dərs ilində isə 264 məktəbdə 917 qrup üzrə 23 799 uşaq cəlb edilib. 2019-2020-ci tədris ilində BŞTİ-nin tabeliyindəki 271 ümumi təhsil müəssisəsində 962 məktəbəhazırlıq qrupunun fəaliyyətə başlaması nəzərdə tutulur.

Yeni dərs ilində də tədrisin təşkili işinin səmərəliliyinin artırılması, təhsilin keyfiyyətinin yüksəldilməsi, məktəblərin fəaliyyətində rəqabətliliyin genişləndirilməsi, məktəblərdə sağlam və yaradıcı mühitin möhkəmləndirilməsi üçün sistemli iş aparılacaq. Müəllimlərin peşəkarlıq səviyyəsinin artırılmasına yönəlmiş zəruri tədbirlərin reallaşdırılması, təhsil müəssisələrinin idarəetmə məsələlərinə xüsusi diqqət yetirilməsi, şagirdlərin təlim nailiyyətlərinin daha da yaxşılaşdırılması, onların vətənpərvərlik ruhunun möhkəmləndirilməsi, istedadlı şagirdlərin stimullaşdırılması və digər bu kimi mühüm istiqamətlər əsas götürüləcək.

***Yasəmən MUSAYEVA, "Azərbaycan"***

# İşğalçılıq siyasətinin növbəti ifşası

## Ermənistan bütün mümkün vasitələrlə danışıqlar prosesini bloklayır, münaqişənin həllindən yayınır, status-kvonu saxlamaq üçün vaxt qazanmağa çalışır

Azərbaycan diplomatiyasının uğurlu gedişləri Ermənistanın təcavüzkar siyasətinin ifşasında, onun işğalçı mahiyyətinin ortaya çıxmasında mühüm rol oynayır. Elə bunun nəticəsidir ki, Ermənistanın işğala siyasi, hüquqi don geyindirmək cəhdləri birmənalı şəkildə iflasa uğrayır. Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin dinc müstəvidə həllində maraqlı olduğunu bəyan edir. Bu hal eyni zamanda Azərbaycanın bu vaxta kimi işğalçı ölkəyə etdiyi ən böyük güzəşt sayılır.

Amma ölkəmiz belə vəziyyətdən istifadə edib Ermənistanın işğalçılıq siyasətini uzatmasını qətiyyən qəbul etmək niyyətində olmadığını da ən yüksək səviyyələrdə beynəlxalq ictimaiyyətin diqqətinə çatdırıb. Hadisələrin inkişaf axarı və real vəziyyətin təhlili göstərir ki, Ermənistanın mövcud hakimiyyətinin təcavüzkar Qarabağ siyasətini davam etdirməsi fonunda Azərbaycanın bu məsələni öz ordusu hesabına çözməsi qaçılmaz olacaq.

Xatırladaq ki, Ermənistanın baş naziri Nikol Paşinyan cari ayın əvvəllərində Xankəndidəki mitinqdə çıxış edərək Yerevanın Dağlıq Qarabağa dair danışıqlarda yürütdüyü diplomatiyanın yekun məqsədi "miatsumdur" demişdi. Bildirmişdi ki, münaqişənin nizamlanmasına dair istənilən qərar ancaq Ermənistan və Dağlıq Qarabağ əhalisinin ümumxalq dəstəyi ilə qəbul oluna bilər.

Görünən odur ki, Nikol Paşinyan Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllinə istiqamətləndiklərini deməsinə baxmayaraq, onun "miatsum" şüarı məsələnin bu yolla nizamlanmasına şans vermir. Baş nazir tarixi saxtalaşdırır, müharibənin işğala, etnik təmizləməyə gətirib çıxaran nəticələrini təqdir edir və onları qoruyub saxlamağa çalışır. Ardınca Ermənistan rəhbərliyinin demokratiyanı Ermənistanın xarici siyasətinin "biznes kartı" adlandırması heç bir mənəvi çərçivələrə sığmır.

Bunlar eyni zamanda Azərbaycanın ərazi bütövlüyünə qarşı rəsmi olaraq iddianın irəli sürülməsi və açıq-aşkar müharibəyə təhrikdir. Ermənistan bu təxribatçı və destruktiv açıqlama ilə regionu yeni təhlükə və risklərlə üzbəüz qoyur və ölkədaxili problemlərdən yayınmaq üçün qəsdən vəziyyəti gərginləşdirir.

N.Paşinyan hakimiyyətə gəldiyi bir il müddətində heç bir ciddi iş görə bilmədiyi üçün erməni cəmiyyətini xarici düşmən təhlükəsi ətrafında birləşdirməyə çalışır. Bu, həmçinin işğalçılıq siyasətinin növbəti ifşası olmaqla yanaşı, beynəlxalq hüququn norma və prinsiplərinə, eləcə də BMT Təhlükəsizlik Şurasının qətnamə və qərarlarına qarşı açıq hörmətsizlikdir. N.Paşinyan və Ermənistanın digər yüksəkvəzifəli şəxslərinin bu kimi açıqlamaları epizodik hallar olmayaraq, dövlət səviyyəsində işğalçılıq siyasəti yürütməyin və buna görə beynəlxalq hüquqi məsuliyyət daşımağın sübutudur.

Beləliklə, Ermənistan ən yüksək siyasi səviyyədə əsl niyyətinin danışıqlar vasitəsilə münaqişənin həlli deyil, Azərbaycan ərazilərinin qanunsuz işğalının davam etdirilməsi olduğunu nümayiş etdirdi. Belə vəziyyətdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin hərbi müstəvidə həlli ehtimalı artıb ki, bu da ermənilər üçün əsl fəlakət anlamına gəlir.

Ona görə beynəlxalq ictimaiyyət Ermənistana özünü cəzasızlıq şəraitində hiss etməsinə imkan verməməli, bu ölkənin rəsmilərinin Azərbaycanın suverenliyi və ərazi bütövlüyünü kobud surətdə pozan məsuliyyətsiz bəyanatlarını və addımlarını pisləməli, onları bu yoldan çəkindirməli, münaqişənin sülh yolu ilə BMT Nizamnaməsi, Helsinki Yekun Aktı və BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi qətnamələr əsasında həlli üzrə danışıqlar prosesinə məcbur etməlidir.

Ermənistanın özünü beynəlxalq ictimaiyyətə "demokratik ölkə" kimi sırımasının heç bir əsası yoxdur. Demokratik ölkə işğal və etnik təmizləmə aparmır, dünyanın ən ali beynəlxalq qurumu olan BMT Təhlükəsizlik Şurasının qətnamələrini qulaqardına vurmur.

Eyni zamanda Ermənistan ATƏT-in Minsk qrupunun vasitəçiliyi altında ciddi danışıqlar aparmaq əvəzinə Azərbaycanın səbrindən və münaqişənin dinc yolla həlli ilə bağlı üzərinə götürdüyü öhdəliyindən sui-istifadə edir. Ermənistan bütün mümkün vasitələrlə danışıqlar prosesini bloklayır, münaqişənin həllindən yayınır və işğalı, etnik təmizləmənin nəticələrini davam etdirmək, status-kvonu saxlamaq üçün vaxt qazanmağa çalışır.

Xatırladaq ki, ötən ilin sentyabrında Azərbaycan Prezidenti İlham Əliyev ölkəmizdə səfərdə olan ATƏT-in baş katibi Tomas Qremingerlə görüşündə qeyd etmişdi ki, Ermənistanın yeni baş nazirinin fəaliyyətə başladığı ilk günlərdən münaqişənin həlli ilə əlaqədar verdiyi ziddiyyətli bəyanatlar ən azı təəccüb doğurur. Xüsusilə "Azərbaycan qondarma "Dağlıq Qarabağ Respublikası" ilə danışıqlar aparmalıdır" tezisi qəbuledilməzdir. Bu, onu göstərir ki, Ermənistan rəhbərliyi danışıqları pozmaq istəyir. Onların Azərbaycanın işğal edilmiş rayonlarının guya qondarma "Dağlıq Qarabağ Respublikası"nın tərkib hissəsi olması kimi bəyanatlarını da Azərbaycan qətiyyətlə rədd edir və ATƏT-i bu təhlükəli bəyanatlara reaksiya verməyə çağırır.

Digər tərəfdən, ATƏT-in Minsk qrupunun həmsədrləri tərəfindən təqdim olunan və hazırda müzakirə edilən bütün sənədlərdə Azərbaycanın Dağlıq Qarabağ Muxtar Vilayətinin əhalisi kimi erməni və azərbaycanlı icmaları müəyyən edilib. Rəsmi Bakı Ermənistanın baş nazirinə ziddiyyətli açıqlamalarla çıxış etmək əvəzinə, həmin sənədləri oxumağı tövsiyə edir. Amma Paşinyan bütün bunların əvəzinə, təxribat xarakterli və ziddiyyətli açıqlamalarla çıxış edərək vəziyyətin gərginləşdirilməsinə və danışıqlar prosesinin pozulmasına yönəlik addımlar atır.

Bütün bunlara görə isə məsuliyyət birbaşa Ermənistanın və onun baş nazirinin üzərinə düşür. Görünən budur ki, Ermənistanın siyasi-diplomatik başbilənləri müasir geosiyasi proseslərin sürətli yeniləşməsi qarşısında reallığı qəbul etməkdə acizdirlər. Bu səbəbdən də hələlik rəsmi Yerevan heç bir konstruktiv qərar qəbul edə bilmir. Belə vəziyyət öz növbəsində sürətlə Ermənistanın əleyhinə işləyərək onun üzləşdiyi problemlərin miqyasını daha da dərinləşdirir. Ekspertlər hesab edirlər ki, yaxın zamanda Ermənistan rəhbərliyi münaqişənin substantiv danışıqlar yolu ilə həllində, regionda davamlı sülhün və sabitliyin təmin olunmasında əməli addımlar atmasa, onda Azərbaycanın işğalçı ölkə üçün Aprel dərslərini təkrarlaması qaçılmaz olacaq.

***Elçin CƏFƏROV, "Azərbaycan"***

## Ermənistan silahlı qüvvələri atəşkəs rejimini 23 dəfə pozub

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini 23 dəfə pozub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Ermənistan Respublikası Noyemberyan rayonunun Voskevan kəndində və adsız yüksəkliklərdə, İcevan rayonunun Paravakar kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Qazax rayonunun Kəmərli, Qızılhacılı, Bala Cəfərli kəndlərində və adsız yüksəkliklərdə, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonunun Göyəli, Zamanlı kəndlərində və adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Ağdam rayonunun işğal altında olan Şıxlar, Füzuli rayonunun Qərvənd kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər, Ağdam və Xocavənd rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

## Azərbaycan Ordusunda keçirilən səmti müəyyənetmə yarışlarının ilk mərhələsi başa çatıb

Azərbaycan Ordusunda hərbi qulluqçular arasında keçirilən səmti müəyyənetmə yarışlarının ilk mərhələsi başa çatıb.





Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, qoşun növləri və xidmət sahələrindən yarışlara qatılan hərbi qulluqçular ilkin mərhələdə ərazidə uzun məsafəyə qaçış edərək xəritə üzərində göstərilən hədəfləri müəyyənləşdiriblər.

Yarışın şərtlərinə əsasən kişi hərbi qulluqçular 9,3 kilometr məsafədə 16 nöqtəni, qadın hərbi qulluqçular isə 6,8 kilometr məsafədə 15 nöqtəni aşkar ediblər.

## Baş Prokurorluq və Qida Təhlükəsizliyi Agentliyi Şəkidəki kütləvi zəhərlənmə ilə bağlı məlumat yayıb

Avqustun 25-də Şəkidəki "Firuzə" şadlıq sarayında keçirilmiş toy məclisində iştirak edən təxminən 400 qonaqdan 57 nəfəri (24-ü qadın, 1-i yetkinlik yaşına çatmayan) qida zəhərlənməsi diaqnozu ilə müalicə müəssisələrinə müraciət edib.

Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin və Baş Prokurorluğun mətbuat xidmətlərinin AZƏRTAC-a daxil olan birgə məlumatında bildirilir ki, rayon polis şöbəsinin və prokurorluğunun əməkdaşlarının, eləcə də Qida Təhlükəsizliyi Agentliyinin Şəki regional bölməsinin əməkdaşlarının iştirakı ilə dərhal hadisə yerinə baxış keçirilib. Toy məclisində verilmiş ayrı-ayrı qida məhsullarından nümunələr qablaşdırılaraq götürülüb və digər zəruri istintaq hərəkətləri yerinə yetirilib.

Fakta görə, polis şöbəsində Cinayət Məcəlləsinin 200.3-cü (bilə-bilə pis keyfiyyətli məhsulların istehsalı, satışa buraxılması və ya belə məhsulların satışı, onların keyfiyyətsiz olmasının gizlədilməsi ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin sağlamlığına az ağır və ya ağır zərər vurulmasına səbəb olduqda) maddəsi ilə cinayət işi başlanıb, insanların zəhərlənmə səbəblərinin və digər halların müəyyənləşdirilməsi məqsədilə müvafiq ekspertizalar təyin edilib.

İlkin araşdırmalarla müəyyən olunub ki, qonaqlar toy məclisində müxtəlif qida və içki məhsulları qəbul etdikdən sonra halları pisləşib, dərhal rayon mərkəzi xəstəxanasına müraciət etmiş və ilkin tibbi yardım göstərilməklə evə buraxılıb.

Hazırda iş üzrə Qida Təhlükəsizliyi Agentliyinin mütəxəssisləri cəlb olunmaqla təqsirkar şəxslərin dairəsinin müəyyənləşdirilməsi istiqamətində zəruri istintaq hərəkətləri davam etdirilir.

Qida təhlükəsizliyinə və qida məhsulları istehlakçılarının hüquqlarının pozulmasına yönəlmiş qanun pozuntularının qarşısının alınması istiqamətində bundan sonra da ən ciddi tədbirlər görüləcək.

# İŞİMİZ, GÜZƏRANIMIZ

## Texnoparklar qeyri-neft sektorunun inkişafını sürətləndirir

### İlin birinci yarısında qeyri-neft sənayesində 15,7 faiz artımın qeydə alınması bunu bir daha təsdiqləyir

*Əvvəli 1-ci səh.*

2017-ci il sentyabrın 22-də Prezident İlham Əliyevin iştirakı ilə parkın birinci hissəsinin açılış mərasimi keçirilmişdir. Həmin müəssisənin fəaliyyəti paytaxtın ekologiyasına böyük fayda verir. Həm də tullantıların təkrar emalı sayəsində məhsul istehsal olunur. Bu, şəhərin ekologiyasına müsbət təsir göstərməklə yanaşı, əhalinin məşğulluğuna da töhfə verir.

Prezidentin 3 iyun 2015-ci il tarixli sərəncamına əsasən ölkədə qeyri-neft sektorunun davamlı inkişafının təmin edilməsi, sahibkarlığın dəstəklənməsi, müasir texnologiyalara əsaslanan rəqabətqabiliyyətli sənaye istehsalının təşkili və əhalinin istehsal sahəsində məşğulluğunun artırılması məqsədilə Bakının Qaradağ rayonunda Qaradağ Sənaye Parkı yaradılmışdır. Həmin parkın idarəedici təşkilatı İqtisadiyyat Nazirliyinin tabeliyində fəaliyyət göstərən "Sumqayıt Kimya Sənaye Parkı" MMC-dir. Hazırda parkın bir rezidenti var. Bu da "Bakı Gəmiqayırma Zavodu" MMC-dir. İndiyədək sənaye parkına 500 milyon dollara yaxın investisiya qoyulub, 2 minədək iş yeri yaradılıb.

Ölkənin hərtərəfli inkişafına nail olmaq üçün bölgələrdə də sənaye müəssisələrinin yaradılmasına xüsusi diqqət yetirilir. Dövlət başçısının 26 fevral 2015-ci il tarixli sərəncamı ilə Mingəçevir Sənaye Parkının yaradılması da bu məqsədə xidmət edir. Çünki bölgələrdə belə müəssisələrin yaradılması həm ölkənin ümumi inkişafı nöqteyi-nəzərindən əhəmiyyətlidir, həm də burada yaşayan əhalinin məşğulluğuna geniş imkan yaradır.

Müasir texnologiyaların tətbiqi, rəqabətqabiliyyətli məhsul istehsalı və xidmətlər göstərilməsi məqsədilə yaradılan Mingəçevir Sənaye Parkının idarəedici təşkilatı İqtisadiyyat Nazirliyinin tabeliyində fəaliyyət göstərən "Sumqayıt Kimya Sənaye Parkı" MMC-dir.

Prezidentin iştirakı ilə 2016-cı il 21 sentyabr tarixində Mingəçevir Sənaye Parkının təməlqoyma mərasimi keçirilmişdir. Mingəçevir Sənaye Parkında rezident kimi qeydiyyata alınmış "Mingəçevir Tekstil" MMC-nin iplik istehsalı üzrə dəyəri 85 milyon dollar, illik istehsal gücü 20 min ton iplik olan 2 fabriki ("Ring" və "Open End" üsulu ilə) 2018-ci ilin 27 fevral tarixində Prezidentin iştirakı ilə istifadəyə verilmişdir. Avadanlıqlar Almaniya, İsveçrə, İspaniya və Yaponiyanın aparıcı şirkətlərindən alınaraq quraşdırılmışdır. Texnoparkda fəaliyyət göstərən fabriklərdə şəhər əhalisi üçün 750 yeni iş yeri açılmışdır.

Dövlət başçısının 14 sentyabr 2016-cı il tarixli sərəncamı ilə Pirallahı Sənaye Parkı yaradılıb. Bu parkın idarəedici təşkilatı İqtisadiyyat Nazirliyinin tabeliyində fəaliyyət göstərən "Sumqayıt Kimya Sənaye Parkı" Məhdud Məsuliyyətli Cəmiyyətdir. 30 hektar sahəyə malik Pirallahı Sənaye Parkının 4,67 hektar torpaq sahəsində Almaniya, İtaliya və digər Avropa ölkələrinin texnologiyası əsasında ildə 22,5 milyon qutu və ya 500 milyon həb və kapsul istehsal edəcək zavod inşa edilir. Zavodda onkologiya, QİÇS, sinir sistemi, kardio-vaskulyar, diabet, sümük-əzələ və tənəffüs sistemi təyinatlı dərmanlar, antibiotiklər, virus əleyhinə, diareya və qusmaya qarşı preparatlar, həmçinin rentgen-kontrast və maqnit-rezonans müayinələr üçün əlavələr istehsal ediləcək. Ümumilikdə zavodda birinci mərhələdə 58 təsiredici maddə üzrə 89 çeşiddə dərman istehsal olunacaq. Bununla yanaşı, gələcəkdə zavodda istehsalın daha da genişləndirilməsi nəzərdə tutulur.

Cari ilin 6 ayında qeyri-neft sektorunda 3,2, qeyri-neft sənayesində 15,7, qeyri-neft ixracında 15 faiz artım qeydə alınıb. Sözsüz ki, bütün bu uğurlarda ölkə sənayesində flaqman rolunu oynayan texnoparkların payı böyükdür. Texnoparkların istehsal etdiyi məhsullar ölkənin daxili tələbatını ödədiyi üçün belə məhsulların idxalı ildən-ilə azalır, valyuta axınının qarşısı alınır. Digər tərəfdən, burada istehsal olunan yüksək keyfiyyətli məhsullar dünya bazarına ixrac edilərək ölkənin daha çox valyuta əldə etməsinə imkan yaradır. Bu da öz növbəsində ölkənin dayanıqlı maliyyə sisteminə müsbət təsir göstərən faktorlardan birinə çevrilir.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

**"Caspian Energy Forum" son illər regionda yeganə unikal platformaya çevrilib. Onun çərçivəsində dövlət və özəl sektor təmsilçilərinin fəal dialoqu qurulub ki, bu da iqtisadiyyatın neft-qaz və qeyri-neft sektorunun nümayəndələrini xüsusilə sevindirir. Əminəm ki, sentyabrın 19-da Azərbaycanın paytaxtında keçiriləcək IX Beynəlxalq "Caspian Energy Forum Baku-2019" bu ənənəyə sadiq qalacaq və dialoqun daha da fəallaşmasına xidmət edəcək".**

## "Caspian Energy Forum Baku - 2019" yubileylərə həsr olunacaq




Bu barədə məlumat verən "Caspian European Club"un sədrinin birinci müavini və baş icraçı direktoru Telman Əliyev bildirib ki, "Əsrin müqaviləsi"nin imzalanmasının 25 və "Caspian Energy" jurnalının 20 illik yubileyinə həsr olunmuş IX Beynəlxalq "Caspian Energy Forum"un növbəti tərəfdaşı uzun müddətdir əməkdaşlıq edilən "NABUCCO A&C" şirkəti olub. "Öz layihələri ilə Azərbaycanda yaxşı tanınan "NABUCCO A&C" şirkəti sıralarında dünyanın 50 ölkəsindən 5 min şirkət və təşkilatı birləşdirən "Caspian European Club"un ən fəal üzvlərindən biridir. Biz bu şirkətlə gələcəkdə də sıx əməkdaşlıq etməyə hazırıq və tərəfdaşlıq üçün açılan yeni imkanlara görə şadıq".

"NABUCCO A&C" tikinti şirkətinin baş direktoru Kəmaləddin Mənsimov isə "Caspian European Club" ilə əməkdaşlığı və regional xarakter daşıyan Bakıdakı illik forumun təşkili üçün tərəfdaşlığı yüksək qiymətləndirdiyini bildirib. "Biz Azərbaycanda İsveçin "ASTRON BUILDINGS" şirkətinin rəsmi və eksklüziv inşaat tərəfdaşıyıq və tikinti sahəsində lider mövqeni tuturuq. Bu il şirkətimizin 10 ilini qeyd edirik. Əsas fəaliyyət istiqamətlərimiz sənaye və kommersiya təyinatlı tamkomplektli polad qurğuların layihələndirilməsi, istehsalı, çatdırılması və montajıdır. Şirkətimiz gələcəkdə də "Caspian European Club" ilə səmərəli əlaqələri davam etdirmək niyyətindədir" deyə Kəmaləddin Mənsimov qeyd edib.

Məlumat üçün bildirək ki, "Caspian Energy Forum Baku - 2019"un işində dünyanın 50 ölkəsindən 1500-dən artıq nümayəndə iştirak edəcək. Onların sırasında Xəzər-Qara dəniz və Baltik regionu ölkələrinin dövlət qurumlarının, nazirliklərin, dövlət komitələri, agentlikləri və xidmətlərinin, həmçinin dövlət və transmilli şirkətlərinin, beynəlxalq maliyyə institutlarının, aparıcı analitik mərkəzlərin, investisiya şirkətlərinin və reytinq agentliklərinin rəhbərləri, həmçinin Azərbaycanda akkreditə olunmuş diplomatik və beynəlxalq missiya nümayəndələri var.

"Caspian Energy Forum Baku-2019" 3 sessiyada keçiriləcək. Birinci sessiya Azərbaycanda neft-qaz sektorunun və sənayenin inkişafına, infrastruktur layihələrin həyata keçirilməsi mövzusuna həsr ediləcək. İkinci sessiyada maliyyə sektorunun inkişafı mövzusuna toxunulacaq, Azərbaycanda investisiyalaşma imkanlarından ətraflı bəhs olunacaq, həmçinin əsas diqqət kiçik və orta biznesin inkişafına yönəldiləcək. Üçüncü sessiyada isə İKT layihələrinin uğurla həyata keçirilməsi, aqrosənaye kompleksinin inkişafı və Azərbaycanın turizm potensialı barədə geniş hesabat veriləcək. Bunlardan əlavə, forumda plenar tematik sessiyalar keçiriləcək, kofe-breyk, işgüzar nahar zamanı iştirakçıların işi və ünsiyyəti üçün əlavə imkanlar nəzərdə tutulub.

Qeyd edək ki, IX Beynəlxalq "Caspian Energy Forum Baku - 2019"un tərəfdaşları sırasında, həmçinin "Azpetrol ltd" ASC, "AzerTelecom" ASC, "ICODS Hilmer GMBH, "Hellmann Worlwide Logistics", "Nərimanfilm", "Vien Group" şirkəti və "AzeriSard" ASC də var.

**Bununla bağlı açıqlanan məlumatda bildirilir ki, Maliyyə Nazirliyinin Dövlət Maliyyə Nəzarəti Xidməti tərəfindən bu ilin birinci yarısında aparılan nəzarət tədbirləri nəticəsində normativ hüquqi aktların tələblərinə əməl edilmədiyinə görə 756,8 min manat məbləğində artıq və əsassız ödənişlər aşkarlanıb, təqsirkar şəxslər hesabına həmin vəsaitin 299,9 min manatının bərpası təmin olunub, digər əsassız ödənişlərin davam etdirilməsi dayandırılıb.**



## Dövlət Maliyyə Nəzarəti Xidməti 6 aya yekun vurub

Cari ilin birinci yarısında dövlət büdcəsindən maliyyələşən 2 rayon icra hakimiyyətinə, 1 şəhər sahə ərazi nümayəndəliyinə, 1 təhsil müəssisəsinə, 2 MMC-yə bir neçə şəhər və rayonda yerləşən büdcə təşkilatlarına ayrılmış vəsaitlərin təyinatı üzrə xərclənməsinə dair nəzarət tədbirləri həyata keçirilib.

Nəzarət tədbirləri çərçivəsində büdcə təşkilatlarında maliyyə qaydalarının pozulmasına yol vermiş vəzifəli şəxslər barəsində İnzibati Xətalar Məcəlləsinə uyğun inzibati protokollar tərtib edilib, 21 vəzifəli şəxsə ümumilikdə 20,5 min manat məbləğində inzibati cərimələr tətbiq edilib və cərimələrin dövlət büdcəsinə ödənilməsi təmin olunub.

Hesabat dövründə mənimsəmə əlamətləri müşahidə olunan nöqsanlara hüquqi qiymət verilməsi və İnzibati Xətalar Məcəlləsinin müvafiq maddəsinə uyğun olaraq icraatın başlanması üçün qərar qəbul edilməsi məqsədilə 4 təşkilat üzrə aşkar edilmiş 266,7 min manat məbləğində artıq ödənişlərə dair sənədlər prokurorluq orqanlarına göndərilib.

Eyni zamanda 2019-cu ilin birinci yarısında Dövlət Maliyyə Nəzarəti Xidmətinin mütəxəssisləri tərəfindən hüquq mühafizə və prokurorluq orqanlarının məktublarına, məhkəmələrin qərarlarına əsasən 4 təşkilatda aparılmış yoxlamalarla 5 milyon 440,63 min manat məbləğində artıq və əsassız ödənişlər aşkarlanıb, təqsirkar şəxslər hesabına həmin vəsaitin 3 milyon 295,08 min manatının bərpası təmin olunub, müvafiq sənədlər aidiyyəti üzrə təqdim edilib.

Bu müddətdə nəzarət tədbirləri zamanı bir sıra xarakterik nöqsanlar da aşkarlanıb. Belə ki, bəzi hallarda yolların, mənzil fondunun və büdcə təşkilatlarının yerləşdikləri binaların əsaslı və cari təmiri üçün ayrılmış vəsaitlərin təyinatına xərclənməsi üzrə aparılan nəzarət tədbirləri ilə yerinə yetirilmiş kimi sənədləşdirilən işlərin həcminin əsassız olaraq artırıldığı, malların (iş və xidmətlərin) satın alınması zamanı qanunvericiliyin tələblərinə zidd olaraq bəzi hallarda satınalma müsabiqələrinin keçirilmədiyi aşkar edilib. Həmçinin kommunal təsərrüfatı qurumlarında tələb olunan nəqliyyat xərclərinin artırılması və normadan artıq xidməti geyimlərin və iş alətlərinin alınması üzrə artıq vəsait proqnozlaşdırılaraq xərclənib, bəzi hallarda alınmış malların (iş və xidmətlərin) dəyəri bank köçürmələri vasitəsilə deyil, nağd qaydada ödənilib.

Məktəbəqədər və orta təhsil müəssisələrində aparılmış yoxlamalarla şagirdlərin sayının müvafiq qaydada müəyyən edilmiş normadan az olduğu halda ingilis dili, alman dili, Azərbaycan dili və fiziki tərbiyə fənləri üzrə dərslərin siniflərin yarımqruplara bölünməsi ilə keçirildiyi və bu hesaba süni əsas yaradılaraq əlavə əməkhaqqı ödənildiyi, qrupların fəaliyyət göstərməsi üçün lazımi tədris-maddi baza olmadığı halda günü uzadılmış qrupların təşkil edildiyi, ödənişli əsaslarla təhsil alan tələbələr üzrə təhsil haqlarının yığılması və onların xərclənməsi üzrə uçotun tələb olunan səviyyədə aparılmadığı, maddi-məsul şəxslərin öhdəsində bərk və yumşaq inventarlar üzrə çatışmazlığa yol verildiyi aşkarlanıb.

Büdcə təşkilatlarında mühasibat uçotunun təşkili və aparılmasında, hesabatların tərtibi işlərində nöqsanlara yol verilib, təsərrüfat əməliyyatlarına müxabirləşmələr verilməyib, maddi-məsul şəxslərlə tam maddi məsuliyyət haqqında fərdi müqavilələr bağlanılmayıb.

Aşkarlanan nöqsanların tam aradan qaldırılması və belə nöqsanlara digər təşkilatlarda yol verilməsinin qarşısının alınması məqsədilə, habelə nöqsanlara yol verilməsində təqsiri olan vəzifəli şəxslər barəsində tədbirlər görülməsi üçün müvafiq mərkəzi və yerli icra hakimiyyəti orqanlarına təqdimatlar göndərilib.

● **Demoqrafiya**

## Azərbaycanda əhali həm təbii artımla, həm də miqrasiya yolu ilə çoxalır



*Əvvəli 1-ci səh.*

Belə ki, bir sıra gənc ailələrdə ikinci, üçüncü qız övladı arzuolunmazdır. Buna görə də doğulacaq körpənin qız olduğu UZİ cihazları ilə müəyyən edildikdən sonra valideynləri onun dünyaya gəlmədən məhvinə qərar verirlər. Bu məsələnin müzakirəsi illərdir gündəmdən düşmür. Bununla belə vəziyyət yaxşılığa doğru dəyişmir.

Sözügedən problemin mövcud olduğu bir sıra digər ölkələrdə məsələyə qanunla müdaxilə edilir. Lakin bu, o qədər də müsbət nəticə vermir.

Odur ki, ən düzgün yol insanların şüurunda dəyişikliyin yaranmasıdır. Dünyaya gələn uşaqların cins tərkibinə süni müdaxilələr gələcəkdə böyük demoqrafik problemə çevrilə bilər. Bu, ailə quracaq qızların və oğlanların sayında balansın pozulması ilə nəticələnər. Statistika mütəxəssislərinin fikrincə, oğlanlarımız evlənərkən xaricdən gəlin "idxal etməli" olarıq.

Doğulanların cins nisbətinin pozulması ümumi əhalinin cins strukturunu da dəyişir. Hazırda ölkə əhalisinin 49,9 faizini kişilər, 50,1 faizini qadınlar təşkil edir. Əgər təxminən 10 il əvvələ qayıdaraq həmin vaxtdan bəri statistik rəqəmləri izləsək, görərik ki, ölkə əhalisi arasında qadınların sayı getdikcə azalır.

Statistik məlumatlarda həmçinin bildirilir ki, bu ilin birinci yarısında 29 min 391 nikah və 8257 boşanma halları qeydə alınıb. Nikahların sayı artıb. Lakin təəssüf ki, boşanmalar da çoxalıb. Ötən ilin müvafiq dövrü ilə müqayisədə əhalinin hər 1000 nəfərinə nikahların sayı 5,7-dən 6-ya, boşanmaların sayı 1,5-dən 1,7-yə qədər artıb.

Nikahların sayının artması ürəkaçandır. Bu, xalqımızın ailə, övlad sevgisinin tükənməz olduğunu təsdiqləyir, ənənələrə, milli-mənəvi dəyərlərə bağlılığını göstərir.

Boşanmalar isə... Deyirlər, neçə boşanma halı varsa, bir o qədər də səbəb var. Yəni hər cütlük özünə aid olan səbəbdən boşanır. Belədirsə, deməli, hər ailənin möhkəmliyini qorumaq, dağılmasına yol verməmək elə onun özündən asılıdır.

Statistik rəqəmlər ölkədə ölüm hallarının azaldığını göstərir. Bu tendensiya son illərdə demək olar ki, ardıcıl davam edir. Cari ilin birinci yarısında ölkədə 28 min 745 ölüm halı qeydə alınıb və bu, ötən ilin müvafiq dövrü ilə müqayisədə əhalinin hər 1000 nəfərinə ölüm səviyyəsinin 6-dan 5,9-a düşməsi deməkdir. Keçən ilin müvafiq dövründə ölənlərin sayı 29 min 292 olub. Deməli, dünyasını dəyişənlərin sayı 547 nəfər azalıb.

Ölüm hallarının azalmasının səbəbi ölkədə insanların maddi-rifah halının getdikcə daha da yaxşılaşması, əhalinin sağlamlığının dövlət səviyyəsində qorunmasıdır. Bununla yanaşı, Azərbaycan ailəsinin ənənələri də məsələyə müsbət təsir edir. Axı doğmaların bir-birinə yorulmadan qayğı göstərməsi, yaşlılara hörmət, sevgi, qohumların qarşılıqlı xoş münasibətləri ömrü uzadan şərtlərdir.

Ölkədə miqrasiyanın saldosu da müsbət olaraq qalır. Bu ilin yanvar-iyun aylarında Daxili İşlər Nazirliyi və Dövlət Miqrasiya Xidmətinin müvafiq qurumları tərəfindən daimi yaşamaq üçün Azərbaycana 911 nəfər gələn, ölkədən isə 735 nəfər gedən qeydə alınıb. Miqrasiya saldosu müsbət 176 nəfər təşkil edib.

Bunun da səbəbi aydındır. Azərbaycandakı sosial-iqtisadi inkişaf insanların həyatında öz müsbət əksini tapır. Odur ki, buraya köçüb gələnlərin sayı ölkədən biryolluq gedənlərin sayını xeyli üstələyir. Deməli, Azərbaycanda yaşamaq və işləmək xoşdur!

***Flora SADIQLI,***
***"Azərbaycan"***

## Vençur fondlarının yaradılması üçün tədbirlər görülür

"Azərbaycanda vençur fondlarının yaranması ilə bağlı qanunvericilik hazırlanma mərhələsindədir və bununla bağlı İnnovasiyalar Agentliyi öz təkliflərini təqdim edir".

Bu sözləri Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin yanında İnnovasiyalar Agentliyinin sədri Tural Kərimli "AZCLOUD Hackathon 2019" müsabiqəsinə həsr olunmuş mətbuat konfransında deyib. Sədr həmçinin bildirib ki, vençur fondlarının Azərbaycanda fəaliyyətini təşkil etmək üçün bu gün müvafiq qanunvericiliklə yanaşı, investisiya nümunələrinin formalaşması da zəruridir. "Onu deyə bilərəm ki, böyük ehtimalla bu nümunəni ilk olaraq dövlət qurumu, yəni İnnovasiyalar Agentliyi göstərəcək" deyə T.Kərimli qeyd edib.

## "AgroX" innovasiya müsabiqəsinin finalı Gəncədə keçiriləcək

Hazırda ikinci mərhələyə keçmiş 12 agro-startap ilkin versiyaların hazırlanması üzərində işləyir.

Sentyabrın əvvəli "AgroX"də finala çıxmış komandalar üçün "INNOLAND" İnkubasiya və Akselerasiya Mərkəzində növbəti mentor dəstəyi təşkil olunacaq. Gəncə şəhərindən olan və finala vəsiqə qazanmış 5 komanda üçün mentor dəstəyi sentyabrın 15-də Gəncədə təşkil ediləcək. Məlumat üçün bildirək ki, "AgroX" müsabiqəsinə 51 layihə təqdim edilib və 12 layihə ikinci mərhələyə keçib.

Xatırladaq ki, "AgroX" Kənd Təsərrüfatı Nazirliyinin Aqrar Elm və İnnovasiyalar Mərkəzi və "INNOLAND" İnkubasiya və Akselerasiya Mərkəzinin dəstəyi ilə "Startap Azərbaycan" tərəfindən həyata keçirilir.

## Bakı-Tbilisi-Qars dəmir yolu ilə hər ay 1 milyon ton yük daşınır

Bu barədə nəqliyyat bazarındakı mənbə məlumat verib. Mənbənin açıqlamasına görə, daşımaların həcmi ötən illə müqayisədə artıb və bu artım davam edəcək.



Qeyd edək ki, ötən ilin oktyabr ayında açılan Bakı-Tbilisi-Qars dəmir yolu marşrutu Azərbaycan-Gürcüstan-Türkiyə hökumətləri arasında əldə edilən razılaşma əsasında həyata keçirilib. İlkin mərhələdə illik yükdaşıma 6,5 milyon ton, sərnişindaşıma isə bir milyon nəfərəcən olacaq.

Bakı-Tbilisi-Qars Azərbaycan vasitəsi ilə Çindən Avropaya malların çatdırılmasının müddətini əhəmiyyətli dərəcədə qısaldır. Bu isə marşrutu xüsusilə cəlbedici edir.

## Bakıdan Məşhədə və Kərbəlaya avtobus marşrutları açılacaq

Bu barədə İranın Yollar və Şəhərsalma Nazirliyinin beynəlxalq əlaqələr şöbəsinin müdiri Mənüçöhr Salmanzadə deyib.

Bildirib ki, göstərilən marşrut üzrə həm İran, həm də Azərbaycan şirkətlərinə məxsus olan avtobuslar hərəkət edəcək.

Yerli mətbuata açıqlama verən M.Salmanzadənin sözlərinə görə, qarşılıqlı razılaşmaya əsasən Azərbaycan ərazisindən tranzit kimi istifadə edən yük maşınlarının rahatlığı təmin ediləcək. İlk növbədə, gömrük rəsmiləşdirilməsi və yüklərin daşınması üçün rüsum ödənilməsi asanlaşacaq.

Ötən ay Bakıya etdiyi səfəri xatırladan M.Salmanzadə qeyd edib ki, səfər çərçivəsində faydalı görüşlər keçirib. Bu görüşlərə və əldə edilən razılaşmalara əsasən iki yaxın qonşu və dost dövlətlər arasında nəqliyyat sahəsində əməkdaşlıq əlaqələri daha da genişlənəcək, hər iki dövlətin turizm sektorunun inkişafına əhəmiyyətli təkan veriləcək.

***Xəbərlər AZƏRTAC, Trend və digər informasiya agentliklərinin materialları əsasında hazırlanmışdır***



# TURİZM



● Təəssürat

# Dost dosta tən gərək

## Azərbaycan-Gürcüstan: oxşar və fərqli cəhətlərimiz

*Əvvəli 1-ci səh.*





Əksinə, köhnə sovet dönəmindən miras qalan yollarını bizim müasir şose yolları ilə müqayisə etmək qeyri-mümkündür. Ona görə ki, fərq yerlə-göy arasındakı qədərdir.

Azərbaycanın müasir yol infrastrukturu kökündən dəyişmişdir, ölkənin hər yerində, hətta ən ucqar kəndlərə gedən yollar belə yenidən çəkilmişdir. Bakıdan Qırmızı körpüyədək uzanan magistral yol rahatdır, genişdir, çoxzolaqlıdır və təbii ki, Gürcüstanın yollarından dəfələrlə təhlükəsiz və üstündür. Azərbaycanda yollar ikitərəflidir, gecə də, gündüz də rahat getmək mümkündür. Gürcüstanda belə deyil, sadəcə yolların ortasından ayırıcı zolaq çəkilib və ötmə əməliyyatlarında bir qədər ehtiyatlı olmalısan, qarşıdan gələn maşınları da gərək nəzərə alasan. Biz gecə Batumidən Tbilisiyə gedəndə o qədər də enli olmayan trasda sərt döngələrdə narahatlıq hissi də keçirdik. Belə ki, bizim yollar həddən-ziyadə müasir, Gürcüstanda isə sovet dönəmində olduğu kimidir.

Yəni istəsək də, istəməsək də həqiqət ondan ibarətdir ki, bizim turizm potensialımız yolların müqayisəsində qonşularımızdan heç də geridə deyil, əksinə, qat-qat üstündür. Azərbaycan səviyyəsində logistika sistemini qurmaq üçün gürcülərə milyardları xərcləmək lazımdır, bu da mümkün olan iş deyil.

### Gürcülər və biz

Şəksiz ki, gürcülər qonaqpərvərdir. Bizi Tbilisidə Moskva Energetika İnstitutunda 1974-cü ildə bir yerdə oxuduğum tələbəlik yoldaşım Elqudje qarşıladı. Uşaq kimi sevinirdi, elə bil 40 il əvvəl yox, dünən ayrılmışdıq. Bizə nisbətən ucuz, cəmi 60 lariyə kirayəlik ev tapmağa kömək etdi. Ayağımız yerə dəyməmiş Tbilisinin ən yaxşı restoranlarından birinə dəvət etdi. Orada qaldığımız bir neçə gündə bir neçə dəfə sözümüz çəp gəldi. Avtobusda, taksidə, restoranda pulu ödəmək üçün irəli atılırdı. Mən qədərindən çox əsəbiləşəndə isə deyirdi ki, "sən elə bilirsən ki, mən Bakıya gələndə əlimi cibimə salacağam? Arxayın ol, onu görməyəcəksən"! İkinci günü Elqudjeni ram edə bildik.

Amma Bakıya dönüb evdəkilərə gürcülərin qonaqpərvərliyindən ağızdolusu danışanda oğlum güldü ki, ay ata, biz onlardan daha irəlidəyik. Sənin xaricdən gələn qonaqlarının sayı-hesabı yoxdur, İtaliyadan tutmuş İordaniyayadək çox yerdən qonağın olub. Hamısını da Elqudjedən pis qarşılamamısan. O, sizi Tbilisidə gəzdirib, sən isə qonaqlarını Şamaxıya da, Qubaya da aparmısan... Uşaqlar gördüyünü deyir, mübahisə etmək də mənasızdır.

Amma bizim və onların qonaqpərvərliyi arasında elə də fərq yoxdur.

### Ünsiyyət və milli mentalitet

Gürcüləri həmişə ünsiyyətcil və bir qədər də ziyafətlərə meyilli xalq kimi qəbul etmişik. Gürcü şair və yazıçılarını, gürcü filmlərini sözün əsl mənasında sevmişik, lətifələri həmişə dəbdə olub. Sovet dönəmində gürcülərin əliaçıqlığı, səxavəti digərlərinə nümunə idi. Gürcü mentaliteti, gürcü xarakteri elə o vaxtdan xüsusi brend idi. Onları hamı tanıyırdı, hamı rus dilində gürcü ləhcəsi ilə zarafatlaşmağı, lətifə danışmağı sevərdi. Bu gün də bunların hamısı yerli-yerindədir.

Amma di gəl ki, biz nədənsə ünsiyyətlə bağlı Tbilisidə əziyyət çəkdik. Gürcü dilini bilmədiyimizdən rus dilində soruşurduq. Yolda, supermarketlərdə ağzını açıb nəsə soruşursan və görürsən ki, səni anlamırlar. Bu da çətinlik yaradırdı. Elektronika malları dükanında istədiyimiz bir şeyin başqa formasını soruşduq, nə qədər əlləşsək də satıcını anlada bilmədik. Onun da heç vecinə olmadı ki, müştərini əlindən qaçırır. Elqudje bizə izah edir ki, indi gənclər rus dilinə maraq göstərmirlər, hamı üçün ingilis dili daha önəmlidir. Yəni bu dildə danışa bilənlərin sayı çoxdur.

Bu cəhətdən Bakı qeyri-adi şəhərdir. Rus dilini bilirsənsə, səni hər yerdə başa düşəcəklər, danışacaqlar, suallarına da cavab verəcəklər. Sıxıntın olmayacaq, özünü bu şəhərdə qərib hiss edən deyilsən. Belə çıxır ki, biz tolerantlıq baxımından gürcülərdən xeyli üstünük. Bu cəhətdən nəinki Qafqazda, həm də bütün dünyada seçilən nadir bir xalqıq.

Gürcü mentalitetində bir qədər özündən razılıq var, biz isə qonaqla bir qədər fərqli rəftar edirik. Bura gələn istənilən əcnəbi özünü evindəki kimi hiss edir, çünki insanlar heç yerdə olmadığı kimi mehribandır, üzügülərdir, qonağa yol göstərməyə, nəyisə başa salmağa ərinmir. Səni tanısalar da, tanımasalar da xüsusi qayğı göstərməyə özlərini borclu sayırlar.

### Memarlıq

Tbilisi, əlbəttə ki, qədim şəhərdir və tarixinə uyğun da bənzərsiz gözəl memarlıq nümunələrinin sahibidir. Köhnə Tbilisi, onun qala içərisindəki abidələri, Rustavi prospekti, Kür çayı boyu seyrəngahlar, restoran və kafelər, parklar və Kürün üstündən keçən ensiz körpünün ecazkar gecə mənzərələrindən hədsiz zövq ala bilərsiniz. Gürcülər Tbilisinin heykəlləri, qədim binaları və tarixi şəxsiyyətləri ilə fəxr edirlər və buna haqları da çatır. Biz Tbilisinin küçələrini gəzib dolaşanda hər yerdə Şərq memarlığının izlərinə rast gəlirdik. Burada Tbilisinin məşhur qotik və klassik üslubda ucaldılan qədim və yeni binaları da əcnəbilərin diqqətini cəlb edir.

Turistlər isə hər yerdə gözə dəyirdi. Şəhərin mərkəzində, meydanlarda ingilisi fransızdan ayırmaq olurdu. Bəzilərinin də elə badımcan burunlarından, ya da arxalarınca sürü ilə yeriyən çadralı arvadlarından haradan gəldiyini təyin etmək çətin deyildi. Tbilisi doğrudan da ürəyəyatan bir şəhərdir.

Əhalisinin sayı bütün Gürcüstan əhalisinə yaxın olan Bakını Tbilisi ilə müqayisə etmək doğrudan da ağlabatan iş deyil, lap düzünə qalsa, mənasızdır. Tbilisinin tarixi abidələrinin yaşı bir neçə yüzilliklə ölçülürsə, Bakı minillik tarixə qollarını açan nadir şəhərlərdəndir. Burada Şərq və Qərb memarlığı harmonik bir vəhdət təşkil edir. Yeni göydələnlər, nadir memarlıq nümunələri Bakını qənirsiz bir şəhərə çevirib. Onun küçələrində gecə-gündüz gəzsən də, yorulmayacaqsan. Axı Bakının mükəmməl memarlıq abidəsi sayılan 110 yaşlı 30 kilometrlik Dənizkənarı Milli Parkını Tbilisinin Kür çayı boyunca yerləşən parkları ilə necə müqayisə edəsən? Kür çayı boyu uzanan bulvar bir yandan sal qayalara dirənir, o biri tərəfdən də şose yolu ilə kəsilib atılır.

Bakı dünyanın ən gözəl şəhərlərindən biri kimi artıq hər yerdə tanınır və Avropanın ən məşhur şəhərlərini də ötüb keçir. Tanınmış jurnalistlər, məşhur bloqerlər, ümumiyyətlə, dünyanın məşhur simaları Bakının, Dənizkənarı bulvarın gözəlliyini həmişə qeyd ediblər, onun hətta Parisin Sena bulvarından daha gözəl olduğunu etiraf ediblər. Əvvəllər Bakını çox az adam tanıyırdısa, indi bu şəhər dünyada məşhurdur və hamının can atmaq istədiyi sevimli məkana çevrilib.

### Qiymətlər

İki şəhəri müqayisə edəndə gördük ki, Bakı Tbilisidən çox irəlidədir. Amma Şərqə üz tutan turist üçün bir neçə vacib amil var: mehmanxana və yeməklərin qiyməti, bir də dəniz.

Hamısını gəzmək mümkün olmasa da, biz Tbilisinin bir neçə restoranına baş çəkdik. Qiymətlər o qədər də baha deyildi. Yəni istədiyini yeyib ayağa duranda Bakıdakı kimi tərləmirsən, gözlərin alacalanmır, yediyin də burnundan gəlmir. İki bir, üç bir bizim pulla 25-50 manat arasında sayılan xərclə restoranlarda nahar etdik, şam yeməyinə oturduq. 20 manata Bakı bulvarında yalnız çay süfrəsinə əyləşə bilərsən. Bu ola bilər ki, kənd təsərrüfatı məhsullarının Gürcüstanda bizə nisbətən daha ucuz olması ilə bağlı olsun. Amma gözə görünən odur ki, Tbilisi qiymətlərini tənzimləyir, büdcəsi zəif turist də az pula yaxşı dincələ bilir. Ona görə də buraya gələn turistlərin əksəriyyəti üçün qiymətlər vacibdir. Və bəzən hətta deyirlər ki, Gürcüstan kiçik büdcəsi olan turistlər üçündür.

2018-ci ildə Gürcüstana ən çox turist Azərbaycandan gedib - 1,4 milyon nəfər. İkinci yerdə Rusiyadır, üçüncü yerdə Ermənistan. Bu üç ölkədən gələnlərin sayı 4,1 milyondur. Belə çıxır ki, ölkəyə gələn əcnəbilərin tən yarısı bu 3 qonşunun payına düşür.

Turist üçün mehmanxanaların qiyməti də vacib məsələlərdən biridir. Tbilisidə istədiyin qiymətə qalmağa yer tapa bilərsən. 10 manatdan başlayan qiymətlər də var. Çarpayı da ala bilərsən bir gecəlik, mənzil də kirayə götürə bilərsən. Biz birotaqlı mənzili 60 lariyə, hardasa 40 manata götürdük. Dedilər ki, turist axını artanda qiymətlər də dəyişir. Yəni hotelçilikdə qiymətlər çevikdir, sürətlə tənzimlənir. Xususisi saytlarda əlverişli ev, mehmanxana axtarıb tapmaq rahatdır.

Bakıda isə belə deyil. Bahalı hotellər çoxdur, amma ucuzunu tapmaq o qədər də asan deyil. Hətta evlərini bir günlük kirayə verənlər də hesab edirlər ki, əcnəbidirsə, ev sahibi istəyən pulu ödəməlidir.

Belə çıxır ki, nisbətən ucuz mehmanxanalar tikilsə, restoranlar şəbəkəsi yaradılsa və dəniz çimərliklərində yeri belə satıb müftə pul qazananların qarşısı alınsa, turist axınını xeyli artırmaq mümkündür.

O da reallıqdır ki, Azərbaycana gələn əcnəbilərin sayı ildən-ilə durmadan artır. Bu ilin 6 ayı ərzində ölkəmizə 1,4 milyon turist gəlib. Ötən ilin müvafiq dövrü ilə müqayisədə artım 7 faizdir. Bu, əslində ciddi rəqəmdir. Amma ölkəmizin turist axınını daha sürətlə artırmaq imkanları mövcuddur. Azərbaycana gələn turistlərin təxminən yarıdan çoxu Rusiya (29,4 faiz) və Gürcüstan (24,3 faiz) vətəndaşlarıdır. Üçüncü yerdə Türkiyədir (10 faiz).

Sonda onu qeyd etmək vacibdir ki, Tbilisi ilə Bakını müqayisə edəndə əksər göstəricilər üzrə Azərbaycan paytaxtı irəlidədir. Düzdür, o da reallıqdır ki, Bakı bahalı şəhərdir. Londonda 5 manata nahar etmək istəsən, sənə gülərlər. Heç Moskvada da bu, mümkün deyil. Və ola bilsin ki, Bakıda da qiymətləri o qədər endirmək mümkün olmayacaq. Lakin turist axınını gücləndirmək üçün müəyyən addımların atılması da zəruridir. Bahalı xidmətlə yanaşı, nisbətən ucuz başa gələn xidmətlərin təşkil edilməsi turist axınını daha da artıra bilər.

***Bahadur İMANQULİYEV,***
***"Azərbaycan"***

● Xəbərlər

## İçərişəhərdə yeni park salınır

**"Artıq 3 aydır ki, Qoşa Qala qapılarında restavrasiya işlərinə başlamışıq. Bu böyük proses olduğu üçün restavrasiya və bərpa-konservasiya işləri bir müddət davam edəcək".**



Bu fikirlərin müəllifi "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin Aparat rəhbəri Riad Qasımovdur. Onun sözlərinə görə, İçərişəhər ərazisində yeni park da salınır: "Həmçinin Bakı Xanlarının Sarayında restavrasiya işləri aparılır. İlin sonuna qədər bərpa işləri bitəcək və yeni muzey ekspozisiyası yaradılacaq. Həmin ərazidə 3 il əvvəl tapılmış yeraltı hamamla Bakı Xanlarının Sarayı arasında böyük park salınır. Bu istirahət guşəsi bütün sakinlər, Bakı şəhərinin qonaqları üçün nəzərdə tutulub. İnşallah, ilin sonunda həmin ərazi təhvil veriləcək".

Xatırladaq ki, 2019-cu ilin may ayında Qoşa Qala qapılarında başlayan bərpa-konservasiya işləri Avstriyanın tanınmış "Atelier Erich Pummer GmbH" şirkəti tərəfindən həyata keçirilir.

Qala divarları bütövlükdə sonuncu dəfə 1952-1957-ci illərdə bərpa olunub. Yarım əsrdən çox müddətdə isə tarixi abidə restavrasiya edilməyib, yalnız 2011-2012-ci illərdə "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi tərəfindən Qala divarlarının şimal-qərb istiqamətindən 150 metrə yaxın hissəsi ilkin vəziyyətinə gətirilib.

## Dünyanın təhlükəsiz məkanları

**Dünyanın ən təhlükəsiz ölkələri hansılardır? "Numbeo" servisi 2019-cu ilin ilk yarısı üzrə dünyanın ən təhlükəsiz ölkələrinin və şəhərlərinin reytinqini dərc edib.**

Ekspertlər dünyanın 123 ölkəsində və 328 şəhərində cinayətkarlıq səviyyəsini təhlil ediblər.

Qətər dünyanın ən təhlükəsiz ölkəsidir. Birləşmiş Ərəb Əmirlikləri ikinci, Yaponiya isə üçüncü sırada yerləşir.

Ən təhlükəli ölkələr sırasında Əfqanıstan, Papua, Yeni Qvineya və Cənubi Afrika göstərilib.

Həmçinin dünya şəhərləri üzrə ayrıca təhlükəsizlik reytinqi tərtib edilib. Bakı dünyanın ən təhlükəsiz şəhərləri sırasındadır. İlk üçlükdə Əbu-Dabi (BƏƏ), Doha (Qətər) və Kvebek (Kanada) yer alıb.

Dünyanın ən təhlükəli şəhərləri isə Karakas (Venesuela), Pitermaritsburq (Cənubi Afrika) və Port Morsbi (Papua Yeni Qvineya) hesab olunur.

## Avropada turistlər üçün ən bahalı ölkə hansıdır

**İslandiya turistlər üçün ən bahalı Avropa ölkəsidir. Burada malların qiymətləri Avropa ölkələri arasında ən yüksək göstəricidir.**



Bu sırada İsveçrə ikinci yerdə qərarlaşıb. İlk üçlüyə Norveç də düşüb. Sonrakı yerlərdə Danimarka, İrlandiya, Lüksemburq, Finlandiya, İsveç, Böyük Britaniya, Hollandiya, Belçika, Fransa, Avstriya və Almaniya qərarlaşıb.

İslandiyada turist restoranda pendirli pizzanı təxminən 17 avroya, bir qədəh şərabı 10 avroya ala bilər: "Evdən sifariş verərək hamburger, fri kartof və pivə üçün maksimum 13 dollar ödəyə bilərəm. Bu, İslandiyaya gedərkən büdcəmə əhəmiyyətli dərəcədə təsir edən qiymət fərqidir". Bu fikirlər 22 yaşlı amerikalı turistə məxsusdur.

İslandiya Mərkəzi Bankının proqnozlarına görə, 2019-cu ildə ölkə iqtisadiyyatı son 10 ildə ilk dəfə yavaşıyıb və bu, adada turizm sənayesinin inkişafındakı azalma, habelə bu ilin martında lou-kost xidmətlər təqdim edən "Wow Air" aviaşirkətinin iflası ilə əlaqədardır. Ötən il İslandiyaya 2,3 milyon xarici turist səfər edib.

## Sağlamlıq və Termal Turizminə dair əməkdaşlıq görüşü keçirilib

**Azərbaycan Sağlamlıq və Termal Turizminə Dəstək İctimai Birliyinin Bakı ofisində Türkiyənin Dənizli Xəstəxanalar Şəbəkəsinin nümayəndələri ilə görüşü keçirilib.**



Qurumun prezidenti Ruslan Quliyev görülmüş işlər və layihələr haqqında qonaqlara məlumat verib. Daha sonra AHTTSA-nın icraçı direktoru Tərlan Quliyevin fikirləri dinlənilib.

Dənizli Xəstəxanalar Şəbəkəsinin xarici əlaqələr sektorunun müdiri Emre Türkmen xəstəxana haqqında ətraflı məlumat verərək, xidmət göstərdikləri ixtisas xəstəliklərinin müalicəsi istiqamətində fəaliyyətlərindən bəhs edib. Əməkdaşlıq perspektivləri, fəaliyyət planı müzakirə olunub, Dənizli Xəstəxanalar Şəbəkəsinin ixtisaslı həkimlərinin Azərbaycanda seminarlarının təşkili və Dənizli bölgəsinə tanışlıq turlarının təşkili barədə yekdil qərar əldə olunub.

● Təbiətin canlı muzeyi










# "Gedək gəzək biz Xızı dağlarını..."

## Cənubi Qafqazda ilk və yeganə Vəhşi Təbiətin Bərpası Mərkəzi və Reabilitasiya Klinikası Altıağac Milli Parkındadır

Azərbaycan təbiətinin füsunkarlığı onun heyranlarının sayını ildən-ilə artırır. Bu yerlərə ilk qədəm basanlar sonradan yaxın dost-tanışları, qohum-əqrabası, nəhayət, ailəsi ilə təbiətimizin seyrinə dalmağı, onun cənnət-məkan guşələrində dincəlməyi özlərinə borc bilirlər. Əslində, vətənimizin dördbir yanı gəzməli, görməli, heyran olunmalıdır. Turizmin bu yerlərdə ildən-ilə inkişafı da ilk növbədə "vəhşi təbiət"də qorunub saxlanan minilliklərin yaşıdı flora və faunası ilə bağlıdır. Axı bu gözəlliklər həm də təbiətin canlı muzeyi kimi hər kəsi heyran qoyur.

Altıağac Milli Parkı da belə məkanlardandır. Respublikamızın şimal-şərqində Xızı ilə Siyəzən rayonlarının ərazisində yerləşən bu unikal təbiət muzeyi - park 2004-cü ilin avqust ayında 11035 hektar sahədə salınıb. Milli Park eko-turizmin inkişafı, təbiət komplekslərinin, ətraf mühitin qorunması, yerli flora və faunanın bərpası, Böyük Qafqazın cənub-şərq silsiləsinin təbii landşaftının qorunub-saxlanılması məqsədilə yaradılıb. Ərazisindən Ataçay və onun bir neçə qolu axır. Bu çay öz başlanğıcını Dübrar dağının 1870 metr hündürlüyündən götürüb dərələrdən axıb gedərək Xəzərə tökülür. Suyundan suvarma məqsədilə də istifadə olunur.

Parkın bir hissəsi enliyarpaq ağaclardan yaranmış meşə ilə əhatə olunub. Ən çox Qafqaz palıdı, vələsi, Şərq fıstığı, adi göyrüş, tozağacı, cır alma, armud kimi ağaclara rast gəlinir. Burada yemişan, böyürtkən, əzgil, qaratikan, itburnu və s. kol bitkiləri də az deyil.

Parkın heyvanat aləmi kifayət qədər rəngarəngdir: ərazisində 500-ə yaxın heyvan növü qorunur. Əsasən cüyür, ayı, çöl donuzu, vaşaq, yenot, dovşan, tülkü, dələ, canavar və digər məməlilər məskunlaşan Altıağac Milli Parkı Şamaxının "altı ağac" məsafəsində yerləşdiyindən, ona və kəndlərin birinə Altıağac adı verilib. "Ağac" məsafəsi vaxtilə çox işlədilən qədim uzunluq ölçü vahidi olub. Bir ağac təxminən 5-6 kilometrə bərabər götürülüb.

Təbii ki, əsasən meşəlik ərazilərdən ibarət olan parkda qırqovul, alabaxta, bildirçin, çobanaldadan, çöl qartalı, kəklik, qaratoyuq və quşlara da az rast gəlinmir. Ərazidə adları Azərbaycanın "Qırmızı Kitabı"na daxil edilmiş qonur ayı, çöl qartalı kimi məməli heyvan və quş növləri də diqqəti cəlb edir.

Cənubi Qafqazda ilk və yeganə Vəhşi Təbiətin Bərpası Mərkəzi və Reabilitasiya Klinikası da məhz bu parkda yerləşir. Təbii səbəblərdən zədə alan, xəstələnən və insanlar tərəfindən yaralanan, qanunsuz saxlanılan heyvanlar aşkarlanaraq bura gətirilir. Onlar baytar həkimlər tərəfindən müayinə və müalicə edilir, tam sağaldıqdan sonra vəhşi təbiətə buraxılır.

Ölkəmizin ayrı-ayrı regionlarında turizmin inkişaf etdirilməsi, bölgələrimizin potensialının bu sahəyə yönləndirilməsi məqsədilə həyata keçirilən tədbirlərdən biri də qoruqların və parkların yaradılmasıdır. Haqqında söz açılan Altıağac Milli Parkına gəlincə, o, beş hissədən ibarətdir. Bunlardan üçü qorunur ki, həmin ərazilərə giriş icazəlidir. Çünki burada nadir bitki və heyvanat aləmi var və onların istifadəsi qadağandır. İkisinə isə sərbəst daxil olmaq mümkündür. Parkın ərazisində 20-yə yaxın nadir ağac, 14-dən artıq qorunan heyvan növü var. Bunlardan bəzilərinin kökü, demək olar ki, kəsilmək üzrədir.

Milli Parkda 40 nəfərədək təbiətsevər çalışır. Azərbaycan Turizm İnstitutunun əməkdaşları ilə Altıağac Milli Parkının nəzdində təşkil edilən seminarların məqsədi burada xidmət mədəniyyətinin yüksəldilməsidir. Orta məktəblərin müəllim və şagirdlərinə də burada müxtəlif mövzularda seminarlar keçirilir. Bu isə təbiətlə insanlar arasında canlı ünsiyyət qurmaq kimi vacib məsələlərdə mühüm əhəmiyyət daşıyır.

Altıağac Milli Parkının nəzdində turistlərin istirahət etməsi üçün hər cür şəraiti olan xüsusi evlər inşa edilib. Turistləri qarşılamaq və onlara müvafiq istiqamətlər üzrə xidmət göstərmək üçün münbit şərait var. Parka gələn turistlərə yaz, yay, payız mövsümündə istifadə ediləcək çadır-palatkalar, yataq dəstləri təklif edilir. Bundan əlavə, qonaqlara gəzinti üçün atlar, velosipedlər də verilir. Eyni zamanda 4 cür marşrut və onları müşayiət edən bələdçilərin xidmətləri yüksək, təklif edilən qiymətlər isə müvafiqdir.

Onu da deyək ki, parka gələnlər əsasən xarici turistlərdir. Son vaxtlar yerli qonaqlar da parkda istirahətə üstünlük verirlər. Əvvəllər parkda qış aylarında turistlər gözə az dəysə də, bu gün həmin problem yaşanmır.

Bütün bunlarla yanaşı, onu da qeyd edək ki, turizm şirkətləri ilə park arasında əlaqə hələ ki istənilən səviyyədə özünü göstərmir. Yaxşı olardı ki, turizmlə məşğul olan şirkətlər belə məkanları diqqətdən kənarda saxlamasınlar. Bu işdə Altıağac Milli Parkının direktor müavini Susann Görnertin və Azərbaycan Turizm İnstitutunun Tədqiqat və inkişaf şöbəsinin aparıcı məsləhətçisi, ekologiya üzrə xarici ekspert Gila Altmannın əməyi xüsusi qeyd edilməlidir. Əsasən yerli əhalidən seçilib bələdçi kimi xidmətə cəlb edilənlərin əcnəbi dil bilmək problemi də həll edilmək üzrədir. Hələlik isə bu işdə tərcüməçilərdən istifadə olunur.

Məşhur mahnıda deyildiyi kimi, "Gedək gəzək biz Xızı dağlarını, içək onun sərin bulaqlarını..."

***Məhəmməd NƏRİMANOĞLU,***
***Ağaəli MƏMMƏDOV (foto),***
***"Azərbaycan"***

## Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Xidmətinin Protez Ortopedik Bərpa Mərkəzi dəri və yapışdırıcı vasitələrin satın alınması üzrə

### açıq tender elan edir

● LOT 1 Dəri və yapışdırıcı vasitələrin satın alınması

● Tender iştirakçılarına təklif edilir ki, https://www.etender.gov.az/ - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar LOT üzrə müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

**İştirak haqqı:**
**LOT 1: 500 AZN**

**Tenderdə iştirak haqqının ödənilməsi üçün satınalan təşkilatın bank rekvizitləri:**
**Hesab: AZ81IBAZ38060019449725614215**
**VÖEN: 9900001881**
**Bank: ABB Xətai filialı**
**Kodu: 805625**
**M/H: AZ03NABZ01350100000000002944**
**S.W.İ.F.T: IBAZAZ2X**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər

- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (tender təklifinin təminatının qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *podratçının müəyyən etdiyi digər sənədlər.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər.Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri **25.09.2019-cu il saat 18:00-a** qədər və tender təklifi ilə bank təminatı sənədlərini **02.10.2019-cu il saat 15:00-a** qədər Portal vasitəsilə təqdim etməlidirlər. İddiaçıların təklifləri **02.10.2019-cu il saat 15:00-da** açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

**QEYD: Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.**

***Tender komissiyası***

## BİLDİRİŞ

***Azərbaycan Respublikası Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsi bir sıra təhsil müəssisələrinin təmir-tikintisi üzrə layihə-smeta sənədlərinin hazırlanmasının təkliflər sorğusu üsulu ilə satın alınmasını həyata keçirir.***

Maraqlanan təşkilatlar (012) 465-73-48 (daxili: 110) telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər. Təkliflər sorğusunda iştirak etmək üçün sənədlər 19.09.2019-cu il saat 18:00-dək Bakı şəhəri, Y.Bakuvi küçəsi,18 ünvanında qəbul olunur.

***Tender komissiyası***

## BİLDİRİŞ

Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatası tərəfindən 17.07.2019-cu il tarixdə keçirilmiş "Palatanın şəbəkə infrastrukturunun və server otağının yenilənməsi" işinin satın alınması üzrə Açıq tender üsulu ilə satınalma müsabiqəsində "Ata Texnologiya" MMC ƏDV daxil olmaqla 731.399,12 (yeddi yüz otuz bir min üç yüz doxsan doqquz manat 12 qəpik) manat məbləği ilə qalib elan olunmuş və qalib gəlmiş təşkilatla 26 avqust 2019-cu il tarixdə müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

***Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Xidməti 13 sentyabr tarixində Birləşmiş Millətlər Təşkilatının (BMT) Əməkçi Miqrantların Hüquqlarının Müdafiəsi Komitəsinin Büro üzvlərinin Bakıya səfəri zamanı keçiriləcək tədbirin təşkili sahəsi üzrə iş və xidmətlərin kotirovkalar sorğusu üsulu ilə satın alınmasını həyata keçirir***

Maraqlanan təşkilatlar (012) 596 - 32 - 73 telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər. Kotirovkalar sorğusunda iştirak etmək üçün sənədlər 03 sentyabr 2019-cu il saat 17:00 tarixədək qəbul olunur.

**Ünvan : Bakı şəhəri, Salatın Əsgərova, 85**

***Tender komissiyası***

## "Azərsu" ASC -nin daxili vəsaiti hesabına Xüsusi texnika və nəqliyyat vasitələrinin icarə xidmətlərinin satın alınması məqsədilə

### açıq tender elan edir

**Xüsusi texnika və nəqliyyat vasitələrinin icarə xidmətlərinin satın alınması**

Tender iştirakçıları **https://www.etender.gov.az/** - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Təkliflərin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: *aşağı qiymət, yüksək keyfiyyət, təcrübə, maliyyə vəziyyəti.*

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə tender təkliflərini Portal vasitəsi ilə təqdim edə bilərlər.

**İştirak haqqı 200 manatdır.**

**Təşkilat: "Azərsu" ASC**
**VÖEN: 9900001751**
**Bank: "Kapital Bank"ASC-nin 1 saylı Nəsimi filialı**
**Kod: 200112**
**VÖEN: 9900003611**
**M/h: AZ37NABZ 01350100000000001944**
**S.W. İ. F. T. BIK: AİİBAZ2X**
**H/h: AZ65AİİB 33070019441100216111**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

**İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:**

- *tenderdə iştirak etmək üçün yazılı müraciət (tender komissiyasının adına);*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları;*
- *əsas şərtlər toplusunda nəzərdə tutulmuş digər sənədlər.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər.

Tender proseduru "Dövlət satınalmaları haqqında" Qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **20 sentyabr 2019-cu il saat 18.00-a** qədər, tender təklifi və bank təminatını isə **27 sentyabr 2019-cu il saat 16.00-a** qədər Portal vasitəsilə təqdim etməlidirlər.

İddiaçıların təklifləri **30 sentyabr 2019-cu il saat 11.00-da** açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

**QEYD: Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.**

***Tender komissiyası***

## "Bakı Metropoliteni" QSC müxtəlif təyinatlı, markalı nasosların və onların birləşdirici elementlərinin satın alınması üzrə

### açıq tender elan edir

Tender 1 (bir) LOT üzrə keçirilir:

Tender iştirakçılarına təklif edilir ki, https://www.etender.gov.az/ - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar LOT üzrə müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsi ilə təqdim edə bilərlər.

**LOT-1. Müxtəlif təyinatlı, markalı nasosların və onların birləşdirici elementlərinin satınalınması**

**İştirak haqqı- 250 manat**
**Hesabın adı: BAKI METROPOLITENI QSC**
**Hesab nömrəsi (IBAN) :**
**AZ98AZRT38050019440010268002 AZN**
**VÖEN 1402871431**
**Bankın adı : AZƏR TÜRK BANK ASC (Mərkəz Filialı)**
**Kod: 501361**
**VÖEN: 9900006111**
**Müxbir hesabı: AZ02NABZ01350100000000022944**
**SWIFT BIK: AZRTAZ22**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçıların müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər.

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri **23 sentyabr 2019-cu il saat 17:00-a** qədər və tender təklifi ilə bank təminatı sənədlərini **01 oktyabr 2019-cu il saat 16:00-a** qədər Portal vasitəsilə təqdim etməlidirlər.

İddiaçıların təklifləri **02 oktyabr 2019-cu il saat 16:00-da** açılacaqdır.

İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

**QEYD: Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.**

***Tender komissiyası***

## Dövlət Məşğulluq Xidməti, qeyri-formal məşğulluğun qarşısının alınması sahəsi üzrə və Dövlət Məşğulluq Xidmətinin loqotipinin və brend kitabçanın dizayn tərtibatı xidmətlərin satın alınması üzrə keçirilən

### açıq tenderə dəvət edir

Tender 2 LOT üzrə keçirilir:

**LOT 1 -** Qeyri-formal məşğulluğun qarşısının alınması sahəsi üzrə xidmətlərin satın alınması;

**LOT 2 -** Dövlət Məşğulluq Xidmətinin loqotipinin və brend kitabçanın dizayn tərtibatı xidmətinin satın alınması;

Tender iştirakçılarına təklif edilir ki, https//www.etender.gov.az dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə, texniki imkanlara və təcrübəyə malik olmalıdırlar.Tenderdə iştirak etmək istəyən təşkilatlar müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

**İştirak haqqı: LOT 1 üzrə 100 (yüz) manat**
**LOT 2 üzrə 40 (qırx) manat**
**Satınalan təşkilat: Dövlət Məşğulluq Xidməti**
**VÖEN: 1300144711**
**Bank: Dövlət Xəzinədarlığı Agentliyi**
**Kod: 210005**
**M/h: AZ41NABZ01360100000000003944**
**VÖEN: 1401555071**
**H/h: AZ18CTRE00000000000004788202**
**SWIFT CTREAZ22**
**Büdcə gəlirlərinin təsnifat kodu - 142340**
**Büdcə səviyyəsinin kodu - 7**
**İstirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *iddiaçının vergi şəhadətnaməsinin və nizamnaməsinin təsdiq edilmiş surəti;*
- *iddiaçının bank rekvizitləri haqqında məlumat;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş mənfəət vergisi bəyannaməsinin surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *bənzər layihələr üzrə iş təcrübəsi haqqında məlumat;*
- *ixtisas uyğunluğunun müəyyənləşdirilməsi üçün sənədlər;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (tender təklifinin təminatının qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır);*
- *digər sənədlər.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tenderlə bağlı sualları portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər.

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **19 sentyabr 2019-cu il saat 17:00-dək,** tender təklifi və bank təminatını isə **26 sentyabr 2019-cu il saat 15:00-dək** Portal vasitəsilə təqdim etməlidirlər.

İddiaçıların təklifləri **26 sentyabr 2019-cu il saat 16:00-da** açılacaqdır.

İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

**Qeyd: Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.**

***Tender komissiyası***

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti

## Beynəlxalq aləm

## Aralıq dənizində miqrant gəmisi batdı



Aralıq dənizində, Liviya sahillərinin yaxınlığında qeyri-leqal miqrantları daşıyan gəmi batmışdır. "Anadolu" agentliyinin xəbərinə görə, miqrantlar əsasən Sudandan gəlmişdilər.

BMT-nin Qaçqınların İşləri üzrə Ali Komissarının İdarəsi məlumat vermişdir ki, gəminin batması nəticəsində azı 40 nəfər həlak olmuş, yaxud itkin düşmüşdür. Liviya sahil mühafizəsi və balıqçılar 65 miqrantı xilas etmişlər. Axtarış-xilasetmə əməliyyatı gün boyunca davam etmişdir. Ölənlərin sayının artacağı ehtimal olunur.

Xilas edilmiş miqrantlar Liviyanın paytaxtı Trablisdən 100 kilometr şərqdə yerləşən Xoms şəhərinə çatdırılmışdır. Onlara ilkin tibbi yardım göstərilmişdir.

## Fransada 850 min kompüteri özünə tabe edən virus zərərsizləşdirildi



Fransa jandarmeriyasının kibercinayətkarlıqla mübarizə üzrə xüsusi mərkəzi böyük haker şəbəkəsinin uzun müddət öz məqsədi üçün istifadə etdiyi virusu neytrallaşdırmağa nail olmuşdur. Bu barədə "Le Figaro" qəzeti xəbər verir.

Kibercinayətkarlarla mübarizənin gedişində jandarmlar 850 mindən çox kompüterin təhlükəsizliyini bərpa etmişlər. Kompüterlərin istifadəçiləri hakerlərin uzaqdan etdiyi hücumundan xəbər tutmamışdılar.

Jandarmeriyanın məlumatına görə, bu cinayətkar qruplaşma azı üç il dünya şəbəkələrində fəaliyyət göstərirmiş. Hakerlərə qarşı əməliyyat başlamazdan əvvəl hüquq mühafizə orqanları uzun müddət kəşfiyyat hərəkətləri həyata keçirmişdir.

Jandarmeriyanın ekspertləri aydınlaşdırmışlar ki, kompüterlərə hücumlar Parisin rayonlarının birində yerləşən serverdən başlamışdır. Əməliyyatın yekun mərhələsində mütəxəssislər hakerlərin hətta dövlət saytlarına müdaxilə etməsinə imkan verən zərərli proqramı məhv etmişlər.

## Tailandda 128 yaşlı kişi tapıldı



Tailandın şimal-şərqində kiçik Monsombun kəndinin sakini On Parnompxu iddia edir ki, onun 128 yaşı var. Yerli "The Thaiger" portalının xəbərinə görə, kişinin şəxsiyyət vəsiqəsində doğulma tarixi 9 aprel 1891-ci il göstərilmişdir.

On Parnompxu portalın müxbirinə bildirmişdir ki, "200-cü ad günümədək yaşamaq istərdim". Kişi hesab edir ki, belə yaşa çatmasında ona müntəzəm olaraq idmanla məşğul olması və düzgün qidalanması kömək etmişdir.

Uzunömürlünün yaşı haqqında məlumat təsdiqlənsə, On Parnompxu təkcə Tailandda yox, həm də bütün dünyada ən yaşlı kişi ola bilər.

## Yəməndə qiyamçılar 25 hərbçini öldürdülər



Yəmənin şimalında ordu ilə qiyamçı hövsilər arasında toqquşma nəticəsində azı 25 hərbçi həlak olmuşdur. Bu barədə "Sinxua" agentliyi Yəmən Silahlı Qüvvələrindəki mənbəyə istinadən xəbər verir. Agentliyin müsahibi bildirmişdir ki, bir qrup hövsi Səədə əyalətinin şərq hissəsinə hücum edən hökumət qoşunlarının bölmələrinə tələ qurmuşlar. O əlavə etmişdir ki, toqquşma 25 hərbçinin ölümü ilə nəticələnmişdir. Çoxlu yaralı var. Bir neçə əsgər əsir düşmüşdür.

Səədə qubernatoru Hadi Tərşan məlumat vermişdir ki, Yəmən hökuməti ordu bölmələrinə kömək üçün əyalətə əlavə qüvvə göndərmişdir.

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyinin rəhbərliyi və kollektivi akademik Abel Məhərrəmova əzizi

**AZƏR SADIQOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadə və Milli Məclisin deputatı Cavanşir Paşazadə akademik Abel Məhərrəmova əzizi

**AZƏR SADIQOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Ombudsman Elmira Süleymanova akademik Abel Məhərrəmova əzizi

**AZƏR SADIQOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

"Ağstafa Aqrar Sənaye Kompleksi"nin rəhbərliyi və kollektivi yazıçı-publisist

**MƏMMƏD ƏLİZADƏNİN**

vəfatından kədərləndiklərini bildirir, mərhumun ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
Reklam şöbəsi - 539-49-20, 538-31-11,
Kompüter mərkəzi - 538-20-87,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Mühasibat - 539-59-33,
Faks - (+994 12) 5398441

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 9004
Sifariş 2811
Qiyməti 40 qəpik